RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 274 (8590) BAZAR, 27 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Tarixi torpaqlara tarixi qayıdış



Prezident İlham Əliyev hər il öz doğum gününü şəhid ailələri, qaçqın və məcburi köçkünlər üçün salınmış müasir tipli qəsəbələrin açılışında iştirak etməklə qeyd edirdi. Ənənə halını almış bu tədbirlərdəki çıxışlarında dövlət başçısı hər zaman əminliklə qeyd edirdi ki, Qarabağ işğaldan azad olunacaq, ermənilər tərəfindən dağıdılmış bütün şəhər və rayonlarımız, kəndlərimiz bərpa ediləcək, o torpaqlarda gözəl şəhərlər, kəndlər qurulacaq.

Bu sözlər ürəyimizdəki yaralara məlhəm olsa da, bizə əlçatmaz, uzaq bir xəyal kimi görünürdü. Bu arzunun çin olması diləyilə illəri illərə qatırdıq. Lakin bu il dövlət başçısı məcburi köçkünlərə, bütövlükdə Azərbaycan xalqına verdiyi sözü tutdu, vədini yerinə yetirdi. Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, məcburi köçkünləri sevindirdi, onların statusunu dəyişdi. Qalib ölkənin qalib Prezidenti kimi adını tarixin şanlı səhifələrinə yazdırdı. İlham Əliyev artıq bir milyon qaçqını və məcburi köçkünü olan ölkənin deyil, Vətən müharibəsində möhtəşəm qələbə qazanmış qalib ölkənin rəhbəridir.

Bu şanlı qələbə, torpaqlarımızın işğaldan azad olunması, təcavüzkar Ermənistanın hərb meydanında məğlub edilməsi ilə İlham Əliyev tariximizi və dövlətçiliyimizi şərəfləndirdi, doğma yurd həsrəti ilə yaşayan məcburi köçkünlərin 30 illik iztirabına, nisgilinə son qoydu, Azərbaycanın nüfuzunu beynəlxalq aləmdə yüksəklərə qaldırdı.

## Müzəffər Ali Baş Komandanın qalibiyyət səfəri

Bu il Prezident öz doğum gününü tam fərqli bir şəraitdə qarşıladı. Bu il ilk dəfə olaraq öz doğum gününü məcburi köçkünlərlə birlikdə qeyd etmədi. Bu dəfə doğum günü ərəfəsində işğaldan azad edilmiş əzəli torpaqlarımıza səfər edərək 59 yaşını unudulmaz bir tarixə çevirdi. Müzəffər Ali Baş Komandan doğma Qarabağımıza qalib sərkərdə kimi qədəm qoydu.

Dekabrın 23-də Prezident İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında oldu, müqəddəs bayrağımızı ucaltdı, əsgərlərimizlə görüşdü. Dövlət başçısı özü sükan arxasında əyləşərək yol boyunca azad olunmuş əraziləri seyr etdi, vəhşi ermənilərin kəndlərimizi viran qoymaqlarından hiddətləndi, eyni zamanda Qarabağın gözəlliyinə bir daha heyran oldu. Prezidentin səfəri zamanı çəkilən video və fotolar sosial şəbəkələrdə paylaşılaraq böyük rəğbət və sevgi ilə, xoş ifadələrlə qarşılandı.

Səfər xeyli maraqlı məqamlarla diqqət çəkdi. Prezidentin əsgərlərlə səmimi söhbəti hər kəs tərəfindən bəyənildi, yüksək dəyərləndirildi. Ali Baş Komandanın əsgərlərimizlə birlikdə "Qarabağ Azərbaycandır!" deməsi hərbçilərimizin mənəvi ruh yüksəkliyini daha da artırdı. Elə həmin fotoda əsgərlərimizin üzlərindəki, gözlərindəki enerjiyə, coşquya diqqətlə baxanda bunu görmək olur.

İlham Əliyevin Qubadlı rayonuna səfəri zamanı Qəzyan kəndinin adının ermənicə yazıldığı lövhəni görərək onu sökdürməsi və tapdalaması xüsusilə diqqət çəkdi. Bu maraqlı epizodu İkinci Dünya müharibəsinin sonunda sovet əsgərlərinin alman bayraqlarını paradda ayaqlar altına atıb tapdalaması kadrları ilə müqayisə edilir. Bəli, məğlub edilmiş düşmənin simvollarını, nişanələrini ayaq altına atıb tapdalamaq da qələbənin bir tərkib hissəsi, bir fraqmentidir. Bunlar ondan ötrüdür ki, düşmən psixoloji travma alsın, sınıb yerlə bir olsun.

## Düşmənə verilən mesaj

Prezident çıxışı zamanı Ermənistana mesaj verməyi də unutmadı: "Ermənistan cəmiyyəti düzgün nəticə çıxarmalıdır. Revanş hissi ilə yaşayacaqlarsa, onların axırı pis olacaq. Əgər o tərəfdən buraya bir güllə atılsa, - 5 kilometrdir buradan Ermənistan sərhədinə, - onları elə günə salarıq ki, ümumiyyətlə, öz adlarını unudarlar".

Dövlət rəhbəri vurğuladı ki, biz qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma bir neçə ildən sonra erməni faşizminin yenə baş qaldırmayacağına heç kim təminat verə bilməz. Ona görə Azərbaycan dövləti və ordusu həmişə güclü olmalıdır: "Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik".

Ardı 3-cü səh.

## "Kimya sənayesi müəssisələrinin və təşkilatlarının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 22 mart tarixli 648 nömrəli Sərəncamında dəyişiklik edilməsi və Mingəçevir şəhərində təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, təhsilin keyfiyyətinin yaxşılaşdırılması və təhsil infrastrukturunun müasirləşdirilməsi məqsədilə **qərara alıram:**

1. "Kimya sənayesi müəssisələrinin və təşkilatlarının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 22 mart tarixli 648 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 178, № 10, maddə 640; 2006, № 7, maddə 590; 2010, № 7, maddə 610) 1-ci hissəsinin 9-cu bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Mingəçevir şəhərində təhsil infrastrukturunun inkişaf etdirilməsi məqsədilə "Mingəçevir Şüşə Lifi" Açıq Səhmdar Cəmiyyətinin Mingəçevir şəhəri, Heydər Əliyev prospekti, 108 ünvanında yerləşən sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı 6,98 hektar torpaq sahəsinin təyinatının dəyişdirilərək yaşayış məntəqələrinin torpaqları kateqoriyasına keçirilməsini və Azərbaycan Respublikası Təhsil Nazirliyinin daimi istifadəsinə verilməsini iki ay müddətində təmin etsin;

2.2. "Mingəçevir Şüşə Lifi" Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi ilə əlaqədar üç ay müddətində zəruri tədbirlər görsün;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Mingəçevir Şəhər İcra Hakimiyyəti bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş torpaq sahəsinin məqsədli təyinatının dəyişdirilməsi ilə bağlı bir ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2020-ci il*

## Ölkə əhalisi Prezidentin fəaliyyətini yüksək dəyərləndirir

### Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi rəy sorğusunun nəticələri bunu bir daha təsdiqləyir

Sosial Tədqiqatlar Mərkəzi "Prezidentin fəaliyyəti ictimai rəydə: Vətən müharibəsi və 2020-ci ilin yekunları" adlı rəy sorğusu keçirib. Respondentlərin 96,4 faizi Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasını 2020-ci ildə Azərbaycan Prezidentinin fəaliyyətinin ən uğurlu nəticəsi kimi qiymətləndirib.

Prezident İlham Əliyev adını tarixə 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad edən və Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Müzəffər Ali Baş Komandan kimi yazdı. Bununla da dünyada sayılıb-seçilən görkəmli siyasi lider olduğunu bir daha təsdiqlədi.

Prezidentimizin "Qarabağ Azərbaycandır və nida" ifadəsi, eləcə də 44 günlük Vətən müharibəsində onun rəhbərliyi ilə Azərbaycan xalqının və Azərbaycan Ordusunun Qələbəsi bütün dünyaya göstərdi ki, biz bir qarış torpağımızı belə heç kəsə verən deyilik. Bu, dövlətimizin, xalqımızın, ordumuzun, milli birliyimizin Qələbəsidir. Bu, haqqın və ədalətin zəfər çalmasıdır.

Ardı 3-cü səh.

## Yerevanda əsgər anaları Azərbaycan Prezidentindən kömək istəyirlər

Müharibə bəşər övladının qismətinə yazılan ən böyük faciələrdəndir. Tanrı da şahiddir ki, Azərbaycan 30 il yeni müharibənin və təkrar faciələrin baş verməməsi üçün danışıqlar prosesinə sadiq qaldı, beynəlxalq qurumlarla əməkdaşlığa üstünlük verdi. Prezident İlham Əliyev həm də Ali Baş Komandan kimi səbirlə 17 il Ermənistan tərəfini işğal olunmuş əraziləri tərk etməyə çağırdı. Amma təəssüf ki, bu illər ərzində nə işğalçı dövlət, nə də onun havadarları Qafqazda sülhün bərqərar olması üçün bir addım atdı. Əksinə, yeni ərazilərin işğalı eşqinə düşərək müharibəyə başladılar.

Azərbaycan işğalçı Ermənistanın hücumlarının qarşısını almağa məcbur idi. Üstümüzə gəlirdilər və müdafiə olunmaq, işğal altındakı əraziləri düşmən tapdağından azad etmək bizim haqqımız idi. Hitler necə Moskvada şam yeməyinə can atırdısa, erməni nasistləri də elə bilirdilər ki, səhər çıxsalar, axşam Bakı bulvarında oturub çay içəcəklər. Onlar reallıqların fərqinə varmadan hücuma keçdilər. Bəzi qüvvələr isə ölkəmizin ədalətli mövqeyinə və sonsuz humanizm cəhdlərinə qarşı çirkin savaşa çıxdılar. Düşmən faşist ambisiyalarına və Qafqazı əbədi müharibə ocağına çevirmək istəyən həmin qüvvələrə arxalandı. Əvəzində isə Azərbaycan Prezidentinin və xalqının sərt yumruğu ilə rastlaşdı. Amma yenə də tam məğlub edilənədək inadından əl çəkmək istəmədi. Haqqın və ədalətin təntənəsinə arxalanan Azərbaycan Prezidenti isə bütün sərtliyi ilə düşmənə cavab verdi.

Ermənistanın faşist rejimi əvvəlki illərdə olduğu kimi gözləyirdi ki, kimlərsə gəlib onların yerinə vuruşacaq və onlar yenə "qələbə çələngi"ni boyunlarına atıb "qalib" pozası verəcəklər. Silah-sursat durmadan gəldi, dünyanın hər yerindən Qarabağa ötürülən yaraqlıların da sayı-hesabı olmadı. Amma nə faydası? Azərbaycan Prezidenti erməni faşistlərinin "qalib köpü"nü aldı və onları Qarabağdan iti qovan kimi qovdu. Ali Baş Komandan Azərbaycan xalqı ilə birlikdə misilsiz zəfər çaldı.

İndi 30 illik qarşıdurmanın sonunda Azərbaycanın möhtəşəm qələbəsi sülhün uca bayrağı kimi Qarabağın azad səmalarında dalğalanır. Bu müharibədə Prezident İlham Əliyev Ali Baş Komandan kimi adını hərb tarixinə qızıl hərflərlə yazdı. Dünyada bu gün bizim qələbəmizə qısqanclıqla yanaşanlar, ona kölgə salmaq, dəyərini aşağılamaq istəyənlər və Qələbə paradına dodaq büzənlər tapılsa da, reallıq odur ki, beynəlxalq səviyyəli məşhur hərbi ekspertlər bu qələbənin dünyanın hərb tarixində ən mükəmməl və bənzərsiz müharibədə qazanıldığını etiraf edirlər.

Ardı 3-cü səh.



## Azərbaycan qlobal pandemiyaya qarşı hərtərəfli mübarizəni davam etdirir

Koronavirus pandemiyası bəşəriyyəti təhdid etməkdə davam edir. Təəssüf ki, indiyə qədər dünyada COVID-19-a qarşı aparılan mübarizə tədbirləri nəticəsiz qalıb.

Ölkələrin pandemiyaya qarşı ən effektiv vasitə olan karantin rejimləri tətbiq etmələri sayəsində yoluxmada müəyyən azalma tendensiyaları müşahidə olunsa da, sonradan yumşaldılmalar zamanı virus yenidən alovlanmağa başlayıb. Hazırda vəziyyət ürəkaçan deyil və yüz minlərlə insanın bu təhlükəli infeksiyaya yoluxması barədə rəsmi açıqlamalar verilir. Yoluxmanın 43 faizdən çoxu Şimali və Cənubi Amerikanın payına düşür, digər yerləri isə Avropa, Cənub-Şərqi Asiya bölüşür.

Eyni zamanda koronavirusun mutasiya etmiş yeni növünün sürətlə yayılması da böyük təşviş yaradıb. Buna görə Böyük Britaniya koronavirusa qarşı maksimum məhdudlaşdırıcı tədbirlər tətbiq etməyə qərar verib. Ölkənin səhiyyə naziri Mətt Henkok bildirib ki, Milad dövrü və 2021-ci ilin başlanğıcı çətin olacaq. Koronavirusun yeni variantı sürətlə yayılır və bu COVID-19 ilə mübarizəni daha da çətinləşdirir.

Ardı 15-ci səh.

## Ermənistan müxalifəti indi də xalqı günahlandırır

Müharibədəki məğlubiyyətdən sonra ağır sosial-iqtisadi problemlər məngənəsində boğulan Ermənistan sonu görünməyən tənəzzül dövrünü yaşayır. Siyasi ziddiyyətlər paralel şəkildə digər sferalardakı mövcud problemləri dərinləşdirib. Ermənistanda iqtisadiyyat faktiki olaraq iflic olub, əhalinin səfaləti isə artıb.

Ay yarımdır davam edən mitinqlərdən sonra ortaya çıxan nəticə ondan ibarətdir ki, Ermənistan müxalifəti öz niyyətinə çata bilmir və buna görə də xalqı günahlandırır. Müxalifətin baş nazir postuna vahid namizədi Vazgen Manukyan deyib ki, ermənilər hakimiyyətin devrilməsi prosesinin sivil qaydada baş tutmasını istəyirlərsə, xalq ayağa qalxmalıdır: "Sivil yolla getmək istəyiriksə, yəni dövlətin dağılmasına razı deyiliksə, onda bütün ermənilər meydanda olmalıdırlar. Əgər burada yüz min insan dayansaydı, məsələ çoxdan həll olunmuşdu. Məgər ölkədə yüz min narazı insan yoxdur? Hansılar ki evdə oturub ölkələrinin parçalandığını anlayırlar. O zaman bilirsiniz, insanlarımız da günahkardırlar. Onlar depressiyadadırlar. Xalq iki il yarım öncə yaxşı bir həyat yaşayacağını düşünüb ayağa qalxmışdı. İndi onlara küçələrə çıxmaq ağır gəlir. Amma insanlar kütləvi şəkildə bu depressiyadan qurtulacaqlar. Ermənistanda nələrsə baş verəcək".

Ermənistanın ombudsmanı da bu mövzuya münasibət bildirib və müxalifətə çağırış ünvanlayıb. Sözügedən çağırış ombudsmanın sosial şəbəkədəki səhifəsində yerləşdirilib. Arman Tatoyan qeyd edib ki, aksiyalar zamanı bir sıra müxalifət liderləri silaha sarılmaqla bağlı çağırışlar edir və hakimiyyəti güc yolu ilə ələ keçirmək, hərbi çevriliş barədə danışırlar. Bütün bunların yolverilməz olduğunu bildirən Tatoyan hazırkı mərhələdə ölkədə insan haqlarının qorunması barədə iqtidarla birlikdə müxalifətin də üzərində məsuliyyət olduğunu xatırladıb. Bəyan edib ki, bütün siyasi qüvvələr mübarizəni konstitusion yolla, qanuni və dinc metodlarla aparmaq barədə öhdəlik götürməli və məsuliyyətsiz bəyanatlardan çəkinməlidirlər.

İnsan haqlarını müdafiə etməkdən danışan müxalifətin təhdid tonunda çevrilişdən bəhs etməsinin uyğunsuz olduğu vurğulanıb.

Bu ərəfədə Ermənistan İstintaq Komitəsi Milli Təhlükəsizlik Partiyasının sədri Qarnik İsagulyana qarşı zorakılıq çağırışlarına görə cinayət işi açıb. Bildirilib ki, İsagulyan "Nikolu kim vursa, milli qəhrəman adına layiq görülməli və ya bir milyon dollar mükafat olaraq verilməli" ifadəsinə görə həbs edilib.

Ardı 16-cı səh.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident, əziz dostum!

Bizim hamımıza çoxlu çətinliklər gətirən, dünyanı heç vaxt təsəvvür edə bilməyəcəyimiz şəklə salan bu ilin sonunda xüsusi məmnunluqla Sizə arzu edirəm ki, Yeni il sülh, anlaşma, qarşılıqlı əməkdaşlıq və pandemiyanın aradan qaldırılması üçün perspektivlər açsın.

Eyni zamanda icazə verin doğum gününüz münasibətilə Sizə ən xoş və səmimi arzularımı çatdırım, habelə öz Vətəninizin inkişafı naminə yorulmadan çalışdığınız ali vəzifənin yerinə yetirilməsi işində uğurlar diləyim.

*Səmimiyyətlə Sizin,*

***Stepan MESİÇ,***
***2000-2010-cu illərdə Xorvatiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti adından və şəxsən öz adımdan təbrik edirəm.

Siz həyatınızı Vətəninizə və xalqınıza xidmət işinə həsr etmisiniz. Öz borcunuzu şərəflə və layiqincə yerinə yetirir, dövlətinizin və onun vətəndaşlarının rifahı naminə qeyri-adi istedad, dərin bilik və böyük təcrübə tətbiq edərək, öhdənizə düşən işə böyük güc, enerji və vaxt sərf edirsiniz.

Siz təhsili, elmi, idmanı fəal dəstəkləyirsiniz və bunu qeyd etmək xüsusilə xoşdur ki, ölkələrimiz arasında tibb sahəsində əməkdaşlığa kömək edirsiniz.

Sizə səmimi-qəlbdən uğurlar, firavanlıq, planlarınızın həyata keçməsini, yeni möhtəşəm zəfərlər və sürətli tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

❖ ❖ ❖

Möhtərəm Prezident, cənab Ali Baş Komandan İlham Əliyev!

Biz - ABŞ-Azərbaycan Qarabağ Atlarını Xilasetmə Assosiasiyası (USAKHRA) qeyri-hökumət təşkilatı olaraq bütün kollektivimiz adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Sizin Ali Baş Komandanlığınızla şanlı Azərbaycan Ordusu Vətən müharibəsində böyük Qələbə qazanaraq Azərbaycan dövlətçiliyinə misli görünməmiş töhfə verdi. Bütün dünya azərbaycanlılarına bu möhtəşəm Qələbəni yaşatdığınıza görə Sizə dərin təşəkkürümüzü bildiririk. Siz öz iradənizlə Azərbaycan xalqını bir millət kimi ucaltdınız. Siz özünüz isə Azərbaycan xalqının qəlbində daha da ucalmısınız. Biz çox sevinirik ki, Azərbaycan xalqı ilə onun Prezidenti arasında belə sıx vəhdət yaranıb. Sizin müdrik siyasətinizlə indi Azərbaycan öz tarixinin qızıl hərflərlə yazılan yeni mərhələsinə qədəm qoyub. Sizə dövlətçiliyimizin möhkəmləndirilməsində və inkişafında yeni nailiyyətlər arzulayırıq.

Cənab Prezident, Sizi doğum gününüz münasibətilə bir daha təbrik edir, zati-alinizə Allahdan uzun ömür, möhkəm cansağlığı diləyirik.

*Dərin hörmətlə,*

***Samir NOVRUZOV,***
***ABŞ-Azərbaycan Qarabağ Atlarını Xilasetmə Assosiasiyasının (USAKHRA) həmtəsisçisi və prezidenti***

***Riçard ROE,***
***vitse-prezident***

***Mehin CAVANŞİROVA,***
***həmtəsisçi və vitse-prezident***

***Datse STRAUSA,***
***Avropa üzrə regional direktor***

***Yaşar QULUZADƏ,***
***həmtəsisçi, Azərbaycan, Asiya və Türkiyə üzrə regional direktor***

❖ ❖ ❖

Möhtərəm Prezident, cənab Müzəffər Ali Baş Komandan!

Sizi doğum gününüz münasibətilə Azərbaycanın Belqraddakı Mədəniyyət Mərkəzinin kollektivi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımızı çatdırırıq.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu və müəyyənləşdirdiyi dövlətçilik strategiyasının Sizin tərəfinizdən uğurla davam etdirilməsi Azərbaycanın hərtərəfli və dinamik inkişafını təmin edib. Bu gün ölkəmizdə həyata keçirilən islahatlar və müxtəlif sahələrdə aparılan quruculuq işləri, siyasi sabitlik doğma Azərbaycanımızın daha da qüdrətlənməsinə təkan verir.

Bu il Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı möhtəşəm qələbə xalqımızda böyük qürur və sevinc hissi oyatdı. Bizim rəşadətli və qəhrəman Ordumuz Sizin rəhbərliyinizlə uğurla mübarizə apardı və böyük Qələbəyə nail oldu.

Biz bilirik ki, qarşıda görülməli işlər çoxdur. Əminik ki, nəzərdə tutulan bütün planlar Sizin rəhbərliyinizlə uğurla həyata keçiriləcək. Azərbaycanla bağlı tarixi həqiqətlərin, müstəqillik dövrünün uğurlarının beynəlxalq aləmdə, o cümlədən Balkanlarda təbliği istiqamətində fəaliyyət göstərən mərkəzimiz Sizin qətiyyətli və çevik xarici siyasət kursunuzdan ilham alır.

Möhtərəm cənab Prezident, bu əlamətdar gün münasibətilə bir daha Sizə uzun ömür, möhkəm cansağlığı, Azərbaycanımızın rifahı naminə yorulmaz və şərəfli fəaliyyətinizdə uğurlar diləyirik.

*Dərin hörmət və ehtiramla,*

***Professor Zərifə ƏLİZADƏ,***
***Azərbaycanın Belqraddakı Mədəniyyət Mərkəzinin sədri***

❖ ❖ ❖

Hörmətli Prezidentim cənab İlham Əliyev!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı və uzun ömür arzulayıram.

Biz bu günlərdə həm də Qarabağdakı Zəfərimizin xoşbəxtliyini yaşayırıq. Çünki təxminən 30 il idi ki, hər gün bu Zəfərin xəyalı ilə yaşayırdıq. Amma bir gün mütləq öz torpaqlarımıza qovuşacağımıza əmin idik. Şükürlər olsun ki, Qarabağ bu gün öz sahiblərinə qovuşdu. Həmçinin 44 günlük savaş müddətində yenilməz iradə və qətiyyət nümayiş etdirməyiniz bizə qürur verdi. Bu heç zaman unudulmayacaq. Bu Qələbə münasibətilə zati-alinizi və müzəffər Azərbaycan Ordusunu təbrik edirəm. Şəhid olan əsgərlərimizə Allahdan rəhmət diləyir, doğmalarına başsağlığı verirəm.

Cənab Prezidentim, Sizin liderliyinizlə və gələcəyə hədəflənən siyasətinizlə Azərbaycanın hər il daha da inkişaf edəcəyinə səmimi-qəlbdən inanıram. Bununla bərabər, "Bir millət, iki dövlət" kəlamında təcəssüm tapan Türkiyə-Azərbaycan qardaşlığının və dostluğunun şəxsən Sizin və Prezidentimiz cənab Rəcəb Tayyib Ərdoğanın səyləri ilə bütün sahələrdə daha da inkişaf edəcəyinə ürəkdən əminik. Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı!

*Hörmətlə,*

***Ənvər TÜRKOĞLU,***
***Türkiyə-Azərbaycan Dərnəyinin (TÜRKAZDER) rəhbəri***

*Türkiyə, Ankara şəhəri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, ilk növbədə, assosiasiyamızın bütün üzvləri adından 44 günlük müharibədə qazandığınız qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim. Sizin əzmkarlığınız və qətiyyətiniz sayəsində cəsur Azərbaycan Ordusu beynəlxalq hüquq normalarına uyğun olaraq erməni işğalçılarını qədim və tarixi torpaqlarınızdan nəhayət ki, qovaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Bu tarixi hadisə münasibətilə Sizi bir daha təbrik edirəm. İnanırıq ki, işğaldan azad edilmiş torpaqlarda tezliklə tərəqqi və sürətli inkişaf dövrü başlayacaqdır. Təəssüflər olsun ki, müharibə itkisiz olmur. Ölkənizin bu qanlı, lakin şanlı döyüşlərdə verdiyi itkilərə görə çox kədərlənirik. Təşkilatımız adından Sizə, Azərbaycan xalqına və həlak olanların ailələrinə bir daha dərin hüznlə başsağlığı veririk. Müharibə zamanı dövlətinizə və ordunuza dəstək olan assosasiyamız həlak olanların və yaralananların ailələrinə hər cür kömək göstərməyə davam edəcəkdir.

Hörmətli cənab Prezident, Sizi, həmçinin qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurulmasını və onun böyük inkişaf yolunu yüksək səviyyədə təmin edərək dünya azərbaycanlılarının vahid azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi üçün məqsədyönlü siyasət formalaşdırıb. Bu siyasət Sizin tərəfinizdən uğurla davam etdirilir və dünyanın digər ölkələrində olduğu kimi, İtaliyada da yaşayan azərbaycanlılar arasında vətənpərvərlik və həmrəylik hissləri, eləcə də milli hədəflər uğrunda fəaliyyət bu gün də yüksək səviyyədədir. Rəhbərlik etdiyim "Napoli-Bakı Assosiasiyası" da İtaliya-Azərbaycan dostluğunu daha da möhkəmləndirmək və inkişaf etdirmək istiqamətində fəaliyyət göstərməkdə davam edir. Biz daima dost Azərbaycan xalqının yanındayıq.

İtaliyanın strateji tərəfdaşı olan Azərbaycanın yaxın gələcəkdə bütün sahələrdə yeni uğurlar qazanacağına inanırıq və bunu səmimi-qəlbdən arzulayırıq.

Sizi bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı və uzun ömür, uğurlu siyasətinizdə yeni-yeni nailiyyətlər diləyirəm.

Yaşasın İtaliya-Azərbaycan qardaşlığı!

*Hörmətlə,*

***Cuzeppe KANİLİA,***
***Napoli-Bakı Assosiasiyasının sədri***

# "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 79; 2009, № 6, maddə 400, № 7, maddə 517; 2016, № 3, maddələr 394, 421; 2017, № 7, maddə 1310; 2019, № 1, maddə 31; 2020, № 7, maddə 825) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.1-ci maddəyə "pul vəsaitləridir" sözlərindən sonra ", o cümlədən notariusun depozit hesabına mədaxil edilmiş fiziki şəxslərə məxsus vəsaitləridir" sözləri əlavə edilsin;

1.2. 2.1.2.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"2.1.2.7. fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 (iyirmi) min manatdan yuxarı pul vəsaitləri;";

1.3. 26.1-ci maddədə "30 (otuz)" sözləri "100 (bir yüz)" sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri üzrə kompensasiya 20 (iyirmi) min manatdan çox olmamaqla, notariusların depozit hesablarında olan fiziki şəxslərə məxsus pul vəsaitləri üzrə kompensasiya isə həmin pul vəsaitlərinin 100 faizi həcmində ödənilir.".

**Maddə 2.** Bu Qanunun 1.3-cü maddəsi 2021-ci il 5 aprel tarixindən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2020-ci il*

# "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 395; 2019, № 1, maddə 31, № 2, maddə 204; 2020, № 4, maddə 385) 3-cü maddəsində "4 (dörd) il 9 (doqquz) ay müddətində" sözləri "2021-ci il 5 aprel tarixinədək" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2020-ci il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, №11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, №11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013; Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 178-VIQD və 184-VIQD nömrəli qanunları) 164.1.51-ci maddəsində "sığorta xidmətlərinin" sözləri "xidmətlərin" sözü ilə və "1 il" sözləri "2 il" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında dövlət əmlakının Registri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 1999-cu il 9 dekabr tarixli 226 nömrəli, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2004-cü il 10 avqust tarixli 113 nömrəli və "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi barədə" 2004-cü il 14 oktyabr tarixli 135 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Dövlət rüsumu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 20 noyabr tarixli 198-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 706; 2001, № 10, maddə 640; 2006, № 5, maddə 409, № 7, maddə 590; 2010, № 7, maddə 610) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının Registri haqqında Əsasnamə"nin 3-cü hissəsində "(torpaq sahəsi və ya torpaq sahəsi ilə bağlı olan müəssisə, tikili, qurğu və s.)" sözləri "(binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər)" sözləri ilə əvəz edilsin.

2. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 113 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 621; 2005, № 2, maddə 64, № 8, maddə 718; 2006, № 7, maddə 590; 2007, № 6, maddə 606; 2010, № 4, maddə 287, № 7, maddə 610; 2011, № 11, maddə 998; 2013, № 9, maddə 1052, № 12, maddə 1509; 2014, № 2, maddə 108, № 4, maddə 361, № 6, maddə 632; 2015, № 7, maddə 827, № 9, maddə 1016; 2016, № 11, maddə 1825; 2017, № 3, maddə 348; 2018, № 2, maddələr 202, 203; 2020, № 7, maddə 891) 4.2.1-ci yarımbəndində "torpaq sahələri və torpaqla möhkəm bağlı olub təyinatına tənasübsüz (hədsiz) zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan bütün əşyalar" sözləri "binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 135 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 10, maddə 791; 2005, № 2, maddə 64; 2007, № 6, maddə 606; 2010, № 7, maddə 610; 2015, № 9, maddə 1001) ilə təsdiq edilmiş "Daşınmaz əmlakın dövlət reyestrinin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 10.3-cü bənddən "(torpaq sahələri, torpaqla möhkəm bağlı olan bütün obyektlər, o cümlədən su obyektləri (sututarlar), meşələr, çoxillik əkmələr, binalar, qurğular, qeyri-yaşayış sahələri, mənzillər, fərdi yaşayış və bağ evləri, əmlak kompleksi kimi müəssisələr, kommunikasiyalar və yer təki sahələri)" sözləri çıxarılsın;

3.2. 18.5.1-ci yarımbənddə "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 13.8-ci və bu Qaydaların 10.3-cü maddələrinə uyğun olaraq daşınmaz" sözləri "Daşınmaz" sözü ilə, "su obyektləri (sututarlar)" sözləri "ayrıca su obyektləri" sözləri ilə əvəz edilsin və həmin yarımbənddən ", 15 - yer təki sahələri" sözləri çıxarılsın;

3.3. 21.2-ci bənddən ", yer təki sahələri" və "və yer təkindən" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2020-ci il*

# Dövlət Neft Fondunun Müşahidə Şurası büdcə layihəsini müzakirə edib





Azərbaycan Respublikası Dövlət Neft Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Dövlət Neft Fondunun 2021-ci il üzrə büdcə layihəsi, fondun investisiya siyasəti və qaydaları, eləcə də digər məsələlər müzakirə edilib.

Dövlət Neft Fondunun 2021-ci il üçün büdcə layihəsinin Azərbaycan Prezidentinə təqdim edilməsi barədə müvafiq qərar qəbul olunub.

# Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası keçirilib

Dekabrın 26-da Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının sədri Əli Əsədovun rəhbərliyi ilə şuranın növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş və növbəti mərhələdə veriləcək portfel şirkətlərin korporativ idarə edilməsinə dair prinsip və yanaşmalar, idarəetmə modelləri, struktur və fəaliyyət prinsipləri və dövlət şirkətlərinə dair cari məsələlər müzakirə edilib.

Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurası tərəfindən portfel şirkətlərin korporativ idarə edilməsinə dair müvafiq qərarlar qəbul olunub.

# Baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasına səfər edib

Dekabrın 25-də Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Federasiyasına səfər edib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər zamanı Azərbaycan nümayəndə heyəti Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçukun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirmişdir. Görüş zamanı ölkələrimiz arasında iqtisadi-ticarət, yol-nəqliyyat, energetika, infrastruktur sahələrində əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri haqqında müzakirələr aparılıb.

Aidiyyəti dövlət qurumlarının rəhbərləri və nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə Şahin Mustafayev dövlət başçılarının ikitərəfli əlaqələrin inkişafına xüsusi önəm verdiklərini, ölkələrimiz arasında əlaqələrin strateji səviyyədə olduğunu və iqtisadi-ticarət sahəsi də daxil olmaqla, bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb.

Görüşdə ölkələrimiz arasında ticarət sahəsində əməkdaşlıq əlaqələri müzakirə olunub, qarşılıqlı ticarət dinamikasının mövcud vəziyyəti və artım imkanları, o cümlədən Azərbaycan kənd təsərrüfatı məhsullarının ixracı barədə ətraflı fikir mübadiləsi aparılıb. Həmçinin qarşılıqlı investisiya qoyuluşu sahəsində icrada olan layihələr barədə danışıqlar aparılıb, qarşılıqlı investisiyalar həcminin 6 milyard ABŞ dollarından çox olduğu qeyd edilib.

Nəqliyyat sahəsində əməkdaşlığın yüksək səviyyədə olduğu və dinamik inkişaf etdiyi, bu ilin 10 ayı ərzində Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə yükdaşımalarda 18 faiz artımın qeydə alındığı vurğulanıb. Nəqliyyat-tranzit sahəsində yeni imkanlar müzakirə olunub. Energetika sahəsində əməkdaşlıq əlaqələri ilə bağlı müzakirələr aparılıb, Azərbaycan, İran və Rusiyanın enerji sistemlərinin birləşdirilməsi layihəsinin reallaşdırılması istiqamətində aparılan işlər qeyd olunub.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələləri də müzakirə ediblər.

# Tarixi torpaqlara tarixi qayıdış



Əvvəli 1-ci səh.

## Qarabağın gözəl nemətləri yenidən öz millətimizə nəsib oldu

Bu səfər zamanı hər kəs tərəfindən böyük maraqla qarşılanan bir duyğulu məqam da İlham Əliyevin əlində Qubadlı məhsulu olan xurma tutaraq görüntülənməsi oldu. Belə ki, dövlət başçısına Qubadlıda ağacdan dərilən xurma verildi. Sovqata baxan dövlət başçısı məmnunluqla dedi: "Əladır. Aparırıq Bakıya. Qubadlı xurmasından yeyəcəyik. Elə yerə qoyun əzilməsin".

Bu kadr işğal bitəndən sonra yenidən öz sərvətlərimizə sahiblənməyimizin rəmzi görüntüsüdür. Hamımız bilirik ki, Qarabağ bütövlükdə zəngin təbii sərvətlər məskənidir. Bu torpaqlarımızın hər biri barlı-bərəkətlidir, müxtəlif meyvə-tərəvəzlər bitir. Və 30 ildir ermənilər bu sərvətlərimizi mənimsəyib. Lakin artıq bu talana, soyğunçuluğa son qoyuldu. Əzəli torpaqlarımızın əbədi sahibləri geri döndü. Allahın bu gözəl nemətləri yenidən öz millətimizə nəsib oldu.

İlham Əliyev bu səfərində də erməni faşistləri tərəfindən dağıdılıb viranə qalmış yurdlarımızı ürəkağrısı ilə seyr etdi, amma qətiyyətlə bildirdi ki, tezliklə bütün bu yurdlar abadlaşdırılacaq, Qarabağa yeni həyat bəxş ediləcək və məcburi köçkünlərin hər biri öz doğma yurduna dönəcək.

Prezidentin işğaldan azad edilmiş rayonlara artıq ənənə halını almış səfərləri həm də erməni vandalizmi nəticəsində tamamilə dağıdılmış, yerlə-yeksan edilmiş şəhər, rayon və kəndlərin bərpası və yenidən qurulması ilə bağlı qərar qəbul etmək məqsədi daşıyır. Elə səfərin sonunda dövlət başçısı Bakıya yol alarkən bu fikirləri bildirdi ki, bir müddət sonra bu bölgədə həyat tam normallaşacaq.

Bəli, illər sonra Azərbaycanın Müzəffər Ordusu düşmənin başına dəmir yumruq endirərək Qarabağı işğalçılardan təmizlədi. 30 illik münaqişə 44 gündə Azərbaycanın haqlı qələbəsi ilə bitdi. Bu şanlı və tarixi Qələbənin müəllifi, 44 günlük savaşın qalib sərkərdəsi isə Prezident, müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyevdir.

İlham Əliyev dediyini etdi, Qarabağı Azərbaycana qaytardı. Azad olunmuş ərazilər yenidən qurulduqdan sonra məcburi köçkünlərin öz doğma yurdlarına möhtəşəm qayıdışı baş verəcək, həmin bölgəyə həyat qayıdacaq. Və Prezident növbəti doğum günlərini bu torpaqlarda yeni şəhər və qəsəbələrin, infrastrukturların, sosial obyektlərin və müxtəlif müəssisələrin açılışlarına qatılaraq qeyd edəcək.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Ölkə əhalisi Prezidentin fəaliyyətini yüksək dəyərləndirir

Əvvəli 1-ci səh.

Bu Qələbə bir daha onu göstərdi ki, Prezident İlham Əliyev xalqa verdiyi bütün vədlərə sadiqdir. Qələbəmiz dövlət başçısı, Ali Baş Komandanın səbir, təmkin və dərin siyasi-diplomatik zəkası ilə həyata keçirdiyi məqsədyönlü, uzaqgörən siyasəti sayəsində, xalqımızın öz müdrik lideri ətrafında yumruq kimi birləşməsi nəticəsində mümkün oldu.

Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi sorğunun nəticəri də bu deyilənlərə əsaslanır. Sorğunun nəticələrini Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc keçirdiyi brifinqdə təqdim edib. Onun bildirdiyinə görə, rəy sorğusunda respondentlərə Prezidentin fəaliyyətinin müxtəlif istiqamətlər üzrə səmərəliliyinin dəyərləndirilməsi, Qarabağın hərbi yolla azad edilməsinə inamın əsasında duran amillərin öyrənilməsi, Vətən müharibəsində Qələbəmizi təmin edən əsas hansı amillərin olması, müharibə və pandemiya dövründə əhalinin hiss etdiyi əsas təhlükələrin öyrənilməsi və s. istiqamətlər üzrə suallar ünvanlanmışdı. Respondentlərin 96,4 faizi Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasını cari ildə Prezidentin fəaliyyətinin ən uğurlu nəticəsi kimi qiymətləndirib.

Bununla yanaşı, respondentlərin 75,2 faizi dövlət başçısının müharibə veteranları və yaralı hərbçilərlə görüşlərini və işğaldan azad olunmuş torpaqlara səfərlərini təqdir edib. İl ərzində Prezidentin daha çox insan tərəfindən (68,5 faiz) təqdir olunan digər fəaliyyəti bir sıra icra hakimiyyəti başçılarının, yüksək vəzifəli şəxslərin qanunazidd fəaliyyətinə görə vəzifədən uzaqlaşdırılması olub. Respondentlərin 65,6 faizi Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqa daim qələbə müraciətləri etməsini, 62,1 faizi dövlət başçısının xarici kütləvi informasiya vasitələrinə müsahibələrini və hücum diplomatiyasını 2020-ci ildəki fəaliyyətləri sırasında təqdir edib.

Prezidentin korrupsiyaya qarşı mübarizəni gücləndirməsini və sərt mövqe göstərməsini respondentlərin 60,2 faizi xüsusi qeyd edib. 60,1 faiz respondent tərəfindən isə dövlət başçısının pandemiyanın mənfi təsirlərini azaltmaq üçün həyata keçirdiyi sosial dəstək siyasəti təqdir olunub.

Pandemiyaya qarşı mübarizənin idarə edilməsində Prezident İlham Əliyevin strateji qərarlar qəbul etməsi 58,8 faiz respondent tərəfindən təqdir edilib. 57,1 faiz respondent Prezidentin beynəlxalq tədbirlərin təşəbbüskarı olmasını, 55 faiz respondent isə cari ildə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri ilə keçirdiyi görüşlərin ictimailəşdirilməsini qeyd edib. Sorğuda iştirak edənlərin böyük əksəriyyəti - 83,3 faizi 2020-ci ildə Prezidentin fəaliyyətində təqdir etmədiyi məqamın olmadığını göstərib.

Sosial Tədqiqatlar Mərkəzinin ictimai rəyin öyrənilməsi departamentinin məlumatına görə, sorğuda iştirak edənlərin əhəmiyyətli hissəsi əvvəlki dövrlərlə müqayisədə müharibə zamanı ölkəmizin beynəlxalq informasiya məkanındakı mövqeyini müsbət qiymətləndirib. Azərbaycanın beynəlxalq informasiya məkanında mövqeyinin çox yaxşı olduğunu bildirən 78,6 faiz respondentin 66,5 faizi Prezidentin xarici KİV-ə müsahibələrini müntəzəm izlədiklərini qeyd edib. Dövlət başçısının xalqa müraciətlərini respondentlərin 72,2 faizi müntəzəm izləyib.

Vətən müharibəsindən sonra Prezidentin siyasi lider kimi şəxsi keyfiyyətlərinə ictimai münasibətə gəlincə, əhalinin mütləq əksəriyyəti - 81,6 faiz dövlət başçısında yeni şəxsi keyfiyyətlər müşahidə edib. Respondentlərin 93,7 faizi müharibədə göstərdikləri xidmətlərə görə zabit və əsgər heyətinin təltif olunmasını müsbət qiymətləndirib. Sentyabrın 27-nin Anım günü kimi qeyd edilməsi ilə bağlı həmfikir olanlar rəyi öyrənilənlərin 96,7 faizini təşkil edir. Noyabrın 8-nin Qələbə günü kimi qeyd edilməsi ilə bağlı qərarı dəstəkləyənlər isə 99 faiz civarındadır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu və təkmilləşdirilməsi istiqamətində görülən işləri respondentlərin 94,6 faizi çox səmərəli, 1 faizi əsasən səmərəli qiymətləndirir. Sorğuda iştirak edənlərin 85,1 faizi Prezidentin xarici siyasət istiqamətindəki fəaliyyətinin çox səmərəli, 10,4 faizi isə əsasən səmərəli olduğunu qeyd edir. İşğaldan azad olunmuş ərazilərin yaxın dövrlərdə bərpası ilə bağlı bəyanatlara sorğuda iştirak edənlərin 97,7 faizi inam bəsləyir.

Qeyd edək ki, sorğu Bakı, Abşeron və 7 iqtisadi rayon - Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq Şirvan, Yuxarı Qarabağ rayonları üzrə şəhər, rayon və kənd əhalisi arasında aparılıb. Sorğuda təsadüfi üsulla seçilmiş 1217 respondent iştirak edib. Seçmədə hər iqtisadi rayon üzrə sorğuya cəlb olunacaq respondentlərin sayı proporsional olaraq müəyyənləşdirilib.

Sorğunun nəticələri bir daha göstərir ki, Prezident İlham Əliyevin həm Vətən müharibəsi dövründə, həm də ümumilikdə 2020-ci ildəki fəaliyyəti əhali tərəfindən yüksək qiymətləndirilir. Müsbət haldır ki, ölkə əhalisi Prezidentin fəaliyyətini dərindən təhlil edir və lazımınca dəyərləndirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Son bir ayda şəhid ailəsi üzvləri və müharibə iştirakçıları olan 4 min 500-dən çox şəxs sosial dəstəklə əhatə edilib

Prezident İlham Əliyevin tapşırığına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi İkinci Qarabağ müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailə üzvlərinə, müharibə iştirakçılarına sosial dəstək işləri aparır. Son bir ayda bu kateqoriyalardan olan 4500-dən çox şəxs xüsusi qayğı ilə, sosial dəstəklə əhatə edilib.

Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Milli Məclisdə çıxışı zamanı məlumat verib. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, nazir şəhid ailəsi üzvlərindən 1500-dən çoxuna müvafiq sosial ödənişlərin artıq təyin edildiyini, 1300 ailənin özünüməşğulluq proqramına cəlb olunduğunu deyib.

S.Babayev həmin insanlara reabilitasiya və sosial psixoloji dəstək yönümlü xidmətlərin də göstərildiyini qeyd edib.

Bildirib ki, son bir ayda şəhid və yaralanmış hərbçilərin ailələrindən 2 minədək ailə nazirlik tərəfindən sosial psixoloji dəstəklə əhatə olunub. Onlardan bir qismi qurumun reabilitasiya müəssisələrində sosial psixoloji reabilitasiya xidmətləri ilə təmin edilib. Qalan hissəsinə evlərinə gedilməklə, səyyar formada psixoloji dəstək göstərilib. Bütün bu istiqamətlərdə işlər davam etdirilir.

# Bu il sosial təminat üzrə əhaliyə ötən illə müqayisədə 1 milyard manatdan artıq vəsait ödənilib

Cari ilin ötən dövründə pensiya, müavinət və təqaüd, ünvanlı sosial yardım üzrə əhaliyə ötən ilin müvafiq dövrünə nisbətən 1 milyard manatdan artıq vəsait ödənilib.

Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Milli Məclisdə Nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun 2021-ci il üzrə büdcə zərfi barədə məlumat verərkən deyib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, nazir 11 ay üzrə ödənilən vəsaitdə özünü göstərən bu məbləğ artımının 700 milyon manatdan çoxunun pensiya, qalanının müavinət, təqaüd, ünvanlı sosial yardım üzrə ödənişlərdəki artımlar olduğunu diqqətə çatdırıb.

Ümumilikdə isə bu ilin yanvar-noyabr aylarında pensiya, müavinət və təqaüd, ünvanlı sosial yardım üzrə ödənilən vəsait 5 milyard 264 milyon manat təşkil edib.

S.Babayev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlə təminatı işlərinin uğurla davam etdirildiyini, bu günə qədər 9 mindən artıq şəhid ailəsinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxsin mənzil və fərdi evlə təmin edildiyini deyib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 7 mindən artıq avtomobil verildiyini bildirib.

Nazir sosial infrastrukturun müasirləşdirilməsi və genişləndirilməsi işlərini diqqətə çatdırıb. O, son bir il yarım ərzində nazirlik tərəfindən 9 reabilitasiya mərkəzinin yenidən qurularaq və ya tikilərək istifadəyə verildiyini qeyd edib. Bu müəssisələrin ölkənin bütün əsas regionlarını əhatə etdiyini, yaxın aylarda bir sıra reabilitasiya müəssisələrinin də istifadəyə veriləcəyini bildirib.

# "Nasionalnaya oborona" jurnalında "İkinci Qarabağ müharibəsi: Azərbaycan zəfər çaldı, Ermənistan təslim oldu" sərlövhəli məqalə dərc edilib






Rusiyanın geniş oxucu auditoriyasına malik olan nüfuzlu "Nasionalnaya oborona" jurnalında "İkinci Qarabağ müharibəsi: Azərbaycan zəfər çaldı, Ermənistan təslim oldu" sərlövhəli məqalə dərc edilib.









AZƏRTAC xəbər verir ki, müəllifləri Yevgeni Krutikov və Vladislav Listovski olan materialda Dağlıq Qarabağda 44 günlük silahlı münaqişənin erməni tərəfinin tam məğlubiyyəti və Nikol Paşinyanın faktiki kapitulyasiyası ilə başa çatmasından bəhs olunur. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib. Döyüş əməliyyatlarının yekununa və imzalanan üçtərəfli bəyanata müvafiq olaraq, Ermənistan belə adlandırılan "təhlükəsizlik kəməri" (erməni qoşunları tərəfindən işğal edilən Azərbaycanın yeddi rayonu) və Dağlıq Qarabağ üzərində nəzarəti itirib. Hərbi uğursuzluqlar nəticəsində Ermənistanda kəskin siyasi böhran yaranıb.

Erməni tərəfinin məğlub olmasının səbəblərini təhlil edən müəlliflər yazır ki, qondarma "DQR"də və Ermənistanın özündə ermənilər psixoloji səviyyədə 1994-cü ilin qələbəsi barədə xatirələrə arxayın idilər. 2020-ci il üçün olan vəziyyətə görə Azərbaycan Ordusunun həm sayca, həm də keyfiyyətcə aşkar üstünlüyünə baxmayaraq, Xankəndidə və Yerevanda "biz o vaxt qələbə qazandıq, indi də Bakıyadək gedib çıxacağıq" kimi xülyalarla yaşayırdılar.

Məqalədə qeyd olunur ki, indiki müharibədə Ermənistanın məğlubiyyət səbəbləri strategiya, kəşfiyyat və qismən də psixologiya məsələlərinə əsaslanır. Ermənistanın müharibəyə tamamilə hazırlıqsız vəziyyətdə olması ortaya çıxdı. Hərbi əməliyyatların artıq beşinci günündə Yerevanda etiraf etdilər ki, döyüşməkdən imtina edən 1500 erməni hərbi qulluqçu fərarilik edib. Müharibənin sonuna yaxın erməni fərarilərinin sayı artıq 10 min nəfərə bərabər idi. Özü də bütün səhvlərin bir hissəsi təkcə Paşinyan hakimiyyəti dövrünə deyil, həm də onun sələfləri - Robert Koçaryan və Serj Sarkisyan dövrünə də aid edilir. Lakin etiraf etmək lazımdır ki, məhz Nikol Paşinyan Azərbaycanı həmişə təhrik edərək, müharibənin reallığa çevrilməsi üçün əlindən gələni etdi.

Şirinov Samir Namizəd oğlu - əsgər
Şirinov Sənan Azər oğlu - əsgər
Şirinov Teymur Nəzir oğlu - əsgər
Şirinov Vüqar Xanoğlan oğlu - əsgər
Şirinov Vüsal Akif oğlu - əsgər
Şirinov Vüsal Novruz oğlu - əsgər (ölümündən sonra)
Şirinzadə Əzizağa Qorxmaz oğlu - əsgər
Şirinzadə İslam İsmayıl oğlu - əsgər
Şirinzadə Tuqay Rövşən oğlu - əsgər
Şiriyev Hicran Mehman oğlu - əsgər
Şirməmmədzadə Zamin Qulam oğlu - əsgər
Şubliyev Əhməd Zakir oğlu - əsgər
Şükürlü Cəlal Cabbar oğlu - əsgər
Şükürlü İlqar Arzu oğlu - əsgər
Şükürlü Nadir Tahir oğlu - əsgər
Şükürlü Nicat İlqar oğlu - əsgər
Şükürlü Rəhman Algül oğlu - əsgər
Şükürlü Şahmar Şahlar oğlu - əsgər
Şükürlü Toğrul Əlifais oğlu - əsgər
Şükürov Arif Kamil oğlu - əsgər
Şükürov Ayaz Məmi oğlu - əsgər
Şükürov Elmar Ənvər oğlu - əsgər
Şükürov İlkin Çingiz oğlu - əsgər
Şükürov Qurban Abış oğlu - əsgər
Şükürov Laçın Bəhyəddin oğlu - əsgər
Şükürov Mansur Aydın oğlu - əsgər
Şükürov Mirsəmid Miryaqub oğlu - əsgər
Şükürov Müsahib Arif oğlu - əsgər
Şükürov Roman Soltan oğlu - əsgər
Şükürov Rüstəm Qurbanəli oğlu - əsgər
Şükürov Sahib Sabir oğlu - əsgər
Şükürov Səmran Sahib oğlu - əsgər
Şükürov Yadulla Adil oğlu - əsgər
Şükürzadə Alim Qəhrəman oğlu - əsgər
Şükürzadə Elvin Telman oğlu - əsgər
Şükürzadə Tərlan Ceyhun oğlu - əsgər
Tağıbəyli Əlibəy Telman oğlu - əsgər
Tağıyev Allahverdi Əkbər oğlu - əsgər (ölümündən sonra)
Tağıyev Bəhrəm Rəfail oğlu - əsgər
Tağıyev Ceyhun Zirəddin oğlu - əsgər
Tağıyev Daşqın Allahyar oğlu - əsgər
Tağıyev Elçin Çapay oğlu - əsgər
Tağıyev Elçin Xuduş oğlu - əsgər
Tağıyev Elnur Etibar oğlu - əsgər
Tağıyev Elnur Qənimət oğlu - əsgər
Tağıyev Əli Zakir oğlu - əsgər
Tağıyev Ərzulla Kamran oğlu - əsgər
Tağıyev Fəxri Sədrəddin oğlu - əsgər
Tağıyev Fərid Vasif oğlu - əsgər
Tağıyev Hikmət Niyazi oğlu - əsgər
Tağıyev Hüseyn İmran oğlu - əsgər
Tağıyev Xəyyam Eldəniz oğlu - əsgər
Tağıyev Xəzər Hüseynbala oğlu - əsgər
Tağıyev Xəzri Tağı oğlu - əsgər
Tağıyev İmdad Rövşən oğlu - əsgər (ölümündən sonra)
Tağıyev İsmayıl Vüqar oğlu - əsgər
Tağıyev Kənan Cavanşir oğlu - əsgər
Tağıyev Kənan Əzizağa oğlu - əsgər
Tağıyev Qadir Heydər oğlu - əsgər
Tağıyev Laçın Elsevər oğlu - əsgər
Tağıyev Məhəbbət Abbas oğlu - əsgər
Tağıyev Namaz Qurbanoviç - əsgər
Tağıyev Nemət Feyzulla oğlu - əsgər
Tağıyev Niyaməddin Nizami oğlu - əsgər
Tağıyev Nurlan Tofiq oğlu - əsgər
Tağıyev Orxan Mehman oğlu - əsgər
Tağıyev Orxan Natiq oğlu - əsgər
Tağıyev Rahil Xəlil oğlu - əsgər
Tağıyev Ruslan Habil oğlu - əsgər
Tağıyev Səbuhi Babaş oğlu - əsgər
Tağıyev Sərxan Sücayət oğlu - əsgər
Tağıyev Şamo Sabir oğlu - əsgər
Tağıyev Tağı Elsevər oğlu - əsgər
Tağıyev Ülvi Bayram oğlu - əsgər
Tağıyev Ümid Balağa oğlu - əsgər
Tağıyev Vasif Taleh oğlu - əsgər
Tağızadə Cahangir Arzu oğlu - əsgər
Tağızadə Elvin Alik oğlu - əsgər
Tağızadə Nurlan İldırım oğlu - əsgər
Tağızadə Ruslan Fizuli oğlu - əsgər
Tahirli İskəndər Afəs oğlu - əsgər
Tahirov Akif Rövşən oğlu - əsgər
Tahirov Fərid Faiq oğlu - əsgər
Tahirov Vüsal Vüqar oğlu - əsgər
Tahirzadə Bəhrəm Əzim oğlu - əsgər
Taqiyev Əsgər İslam oğlu - əsgər
Taqoşvili Qiorqi Siskariyeviç - əsgər
Talıblı Firdovsi İlqar oğlu - əsgər
Talıblı Orxan Ərzulla oğlu - əsgər
Talıbov Coşqun Zahid oğlu - əsgər
Talıbov Elgün Yaqub oğlu - əsgər
Talıbov Elnur Gəgiş oğlu - əsgər (ölümündən sonra)
Talıbov Faliyət Teyyub oğlu - əsgər
Talıbov Həsən Rizvan oğlu - əsgər
Talıbov İsmayıl Azad oğlu - əsgər
Talıbov Mehdi Mübariz oğlu - əsgər
Talıbov Nadir Kamran oğlu - əsgər
Talıbov Sahil Sahib oğlu - əsgər
Talıbov Zahir Xətai oğlu - əsgər
Talıbov Ziya Arif oğlu - əsgər
Talıbzadə Mirsəfər Şaddıq oğlu - əsgər
Talıbzadə Şəmistan Hüseyn oğlu - əsgər
Tapdıqlı Emin Səfadur oğlu - əsgər
Tapdıqlı Seymur Xamis oğlu - əsgər
Tapdıqov Elgün Tağı oğlu - əsgər
Tarverdiyev Feyruz İlham oğlu - əsgər
Telmanlı Elşad Hətəm oğlu - əsgər
Teymurxanlı Nicat Azər oğlu - əsgər
Teymurlu Abidin Ədixan oğlu - əsgər
Teymurlu Mirrahil Ramiz oğlu - əsgər (ölümündən sonra)
Teymurov Arif Rüstəm oğlu - əsgər
Teymurov İsmayıl Nağı oğlu - əsgər
Teymurov Namiq Bəhlul oğlu - əsgər
Teymurov Səyyad Ağalar oğlu - əsgər
Teymurov Şahlar Ələfsər oğlu - əsgər
Teyyubov Səfər Bilal oğlu - əsgər
Teyyubov Tofiq Faiq oğlu - əsgər
Teyyubzadə Fəxrəddin Seyran oğlu - əsgər
Təhməzov Asif Valeh oğlu - əsgər
Təhməzov Asim Təyyub oğlu - əsgər
Təhməzov Fərid Şəhadət oğlu - əsgər
Təhməzov İxtiyar İsmayıl oğlu - əsgər
Təhməzov Şükür Fikrət oğlu - əsgər
Təhməzov Tarix Asif oğlu - əsgər
Toğrul Sərdar oğlu - əsgər
Tomarov Cəmil Mehman oğlu - əsgər
Tosifzadə Tosif Əhməd oğlu - əsgər
Tosov Elşən Rövşən oğlu - əsgər
Turabov Rüstəm Fərman oğlu - əsgər (ölümündən sonra)
Tyurin Maksim Ruslanoviç - əsgər
Uğurxanov Elvin Vaqif oğlu - əsgər
Umarov Elşad Qurban oğlu - əsgər
Umarov Səbuhi Qabil oğlu - əsgər
Umarov Vüsal Əliyəddin oğlu - əsgər
Umudov Aydın Şaban oğlu - əsgər
Umudov Malik Pənah oğlu - əsgər
Umudov Tural Elçin oğlu - əsgər
Usenov Rəşad Kamil oğlu - əsgər
Ustayev Eldəniz Rövşən oğlu - əsgər
Usublu Vüqar Rabil oğlu - əsgər
Usubov Fərid Sahib oğlu - əsgər
Vahabov Əlirza Elxan oğlu - əsgər
Vahabzadə Şəhriyar Cəlal oğlu - əsgər
Vahabzadə Yusif Cahangir oğlu - əsgər
Vaqifzadə Məqam Natiq oğlu - əsgər
Verdiyev Arzu Zabit oğlu - əsgər
Verdiyev Elsevər Mərdan oğlu - əsgər
Verdiyev Əmrah Mübariz oğlu - əsgər
Verdiyev Həsən Cəmşid oğlu - əsgər
Verdiyev İbrahim Qabil oğlu - əsgər
Verdiyev İntiqam Rüstəm oğlu - əsgər
Verdiyev Məhəmmədəli Etibar oğlu - əsgər
Verdiyev Süleyman Əvəz oğlu - əsgər
Verdiyev Şamxal Şükür oğlu - əsgər
Verdiyev Tosif Ehtram oğlu - əsgər
Veyisli Veyis Hafiz oğlu - əsgər
Veyisov Ələkən Nazim oğlu - əsgər
Veysalidze İbrahim Əziz oğlu - əsgər
Vəliəhdzadə Fərmayıl Vəfadar oğlu - əsgər
Vəliyev Alik Osman oğlu - əsgər
Vəliyev Amil Habil oğlu - əsgər
Vəliyev Anar Elşən oğlu - əsgər
Vəliyev Arzuman Ənvər oğlu - əsgər
Vəliyev Babək Təyyar oğlu - əsgər
Vəliyev Bakir Etibar oğlu - əsgər
Vəliyev Bayram Əmir oğlu - əsgər
Vəliyev Cavid Çingiz oğlu - əsgər
Vəliyev Cəlil Hüseynağa oğlu - əsgər
Vəliyev Çingiz Mübariz oğlu - əsgər
Vəliyev Elçin Arif oğlu - əsgər
Vəliyev Elməddin Seyfəddin oğlu - əsgər
Vəliyev Əli Emin oğlu - əsgər
Vəliyev Famil Habil oğlu - əsgər
Vəliyev Hüseyn Ədalət oğlu - əsgər
Vəliyev Xəzər Mehman oğlu - əsgər
Vəliyev İlkin Əkrəm oğlu - əsgər
Vəliyev İsmət Elçin oğlu - əsgər
Vəliyev Kənan Hüseynqulu oğlu - əsgər
Vəliyev Marif Vəli oğlu - əsgər
Vəliyev Maşallah Mətləb oğlu - əsgər
Vəliyev Məftun Adil oğlu - əsgər
Vəliyev Məhəmməd İlqar oğlu - əsgər
Vəliyev Murad Vəkilağa oğlu - əsgər
Vəliyev Müşfiq Elçin oğlu - əsgər
Vəliyev Namiq Azad oğlu - əsgər
Vəliyev Neyməddin Şəmsəddin oğlu - əsgər
Vəliyev Orxan Elxan oğlu - əsgər
Vəliyev Rahim Əflan oğlu - əsgər
Vəliyev Ramil Ramiz oğlu - əsgər
Vəliyev Rauf Yusif oğlu - əsgər
Vəliyev Röyal İman oğlu - əsgər
Vəliyev Röyal Süleyman oğlu - əsgər
Vəliyev Sadiq Güləli oğlu - əsgər
Vəliyev Sakit Vəli oğlu - əsgər
Vəliyev Saqi Elburus oğlu - əsgər
Vəliyev Teymur Musa oğlu - əsgər
Vəliyev Tural Gündüz oğlu - əsgər
Vəliyev Yolçu Şakir oğlu - əsgər
Vəlizadə Elmin Qabil oğlu - əsgər
Vəlizadə Elnur Muğdat oğlu - əsgər
Vəlizadə Hüseynqulu Xudayar oğlu - əsgər
Vəlizadə Murad İlyas oğlu - əsgər
Vəlizadə Pünhan Elman oğlu - əsgər
Vəlizadə Tofiq Arzuman oğlu - əsgər
Vəlullayev Elmir Rəhim oğlu - əsgər
Vəzirli Aslan İdris oğlu - əsgər
Vəzirov Murad Muxtar oğlu - əsgər
Vəzirzadə Qürbət Təbriz oğlu - əsgər
Yahyayev Sadiq Mübariz oğlu - əsgər
Yaqublu Razim Rasim oğlu - əsgər
Yaqubov Elmin Şamil oğlu - əsgər
Yaqubov Əliəkrəm Əlizamin oğlu - əsgər
Yaqubov Xaliq Məhəmməd oğlu - əsgər
Yaqubov Xəqani Arif oğlu - əsgər
Yaqubov Nəbi Rzabala oğlu - əsgər
Yaqubov Raqif Həsən oğlu - əsgər
Yaqubov Ramin İmran oğlu - əsgər
Yaqubov Rauf Qabil oğlu - əsgər
Yaqubov Saleh Fərhad oğlu - əsgər
Yaqubov Vidadi Mirağa oğlu - əsgər
Yaqubov Vüqar Misir oğlu - əsgər
Yaminov Elşad Məhəmməd oğlu - əsgər
Yaradov Elməddin Mürvət oğlu - əsgər
Yarılıyev Mübariz Famil oğlu - əsgər
Yarıyev Araz Ayaz oğlu - əsgər
Yarməmmədov Elşən Qılman oğlu - əsgər
Yasinli Samir Əhməd oğlu - əsgər
Yasinov Mahmud Yaşar oğlu - əsgər
Yazıçıyev İbrahim Əli oğlu - əsgər
Yekəyev Nurlan Siracəddin oğlu - əsgər
Yəhyayev Elvin Fədail oğlu - əsgər
Yəhyayev Mehman Hətəm oğlu - əsgər
Yəhyayev Şamil Abakar oğlu - əsgər
Yəhyəyev Oruc Cəlil oğlu - əsgər
Yolçuyev Elmar Zülfüqar oğlu - əsgər
Yunisli Elgün Aris oğlu - əsgər
Yunisov Mahmud Aydın oğlu - əsgər
Yunusov Anar Tofiq oğlu - əsgər
Yunusov Çingiz Ramiz oğlu - əsgər
Yunusov Murad Bayram oğlu - əsgər (ölümündən sonra)
Yunusov Nail Bəhruz oğlu - əsgər
Yunusov Zamik Namiq oğlu - əsgər
Yusibov Elşən Ələfsər oğlu - əsgər
Yusibzadə Pərviz Asaf oğlu - əsgər
Yusifli Asif Arif oğlu - əsgər
Yusifli Bəybala Əlizaman oğlu - əsgər
Yusifli Elvin İlqar oğlu - əsgər
Yusifli Xaliq İlham oğlu - əsgər
Yusifli Sahil Natiq oğlu - əsgər
Yusifli Taleh Adil oğlu - əsgər
Yusifov Ağaəli Vaqif oğlu - əsgər (ölümündən sonra)
Yusifov Aqil Azər oğlu - əsgər
Yusifov Elsevər Zahid oğlu - əsgər
Yusifov İmaməddin Niyaməddin oğlu - əsgər (ölümündən sonra)
Yusifov Qabil Habil oğlu - əsgər
Yusifov Mansur Murad oğlu - əsgər
Yusifov Murad Vaqif oğlu - əsgər
Yusifov Mustafa Bəhrəm oğlu - əsgər
Yusifov Oruc Vasif oğlu - əsgər
Yusifov Ramazan Kamal oğlu - əsgər
Yusifov Rüfan Vasif oğlu - əsgər
Yusifov Seymur Qulu oğlu - əsgər
Yusifov Sənan Aqil oğlu - əsgər
Yusifov Tural Mehman oğlu - əsgər
Yusifov Ülvi Rəhim oğlu - əsgər
Yusifov Vüsal Murad oğlu - əsgər
Yusifov Yusif Oqtay oğlu - əsgər (ölümündən sonra)
Yusifov Yusif Sadıx oğlu - əsgər
Yusifzadə Nəsimi Araz oğlu - əsgər
Yusifzadə Pərvin Əliyusif oğlu - əsgər
Yusublu Zahir Mehman oğlu - əsgər
Yusubov Hüseyn Nizami oğlu - əsgər
Yusubov Tariyel Hüsubəli oğlu - əsgər
Yusubov Tural İlqar oğlu - əsgər
Zabitli Ravil Qalib oğlu - əsgər
Zahidli Tərlan Qurban oğlu - əsgər
Zahidov Murad İlyas oğlu - əsgər
Zahidov Rabil Zahid oğlu - əsgər
Zahidov Samir Ramiz oğlu - əsgər
Zahidov Şamo Vüqar oğlu - əsgər
Zahirov Fəqan Fuad oğlu - əsgər
Zahirov Şamo Səfərəli oğlu - əsgər
Zahirov Vüqar Bəyverdi oğlu - əsgər
Zaidov İsaq Söhrab oğlu - əsgər
Zaidov Müqəddəs Məmməd oğlu - əsgər
Zaidov Nemət Maşallah oğlu - əsgər
Zakirli Feruz Tapdıq oğlu - əsgər
Zamanlı Tural Tərlan oğlu - əsgər
Zamanov Babək Bəhlul oğlu - əsgər
Zamanov Barat Həmzə oğlu - əsgər
Zamanov Məhərrəm Məmmədsadıq oğlu - əsgər
Zamanov Pərviz Nazim oğlu - əsgər
Zamanov Samir Mirzəcan oğlu - əsgər
Zamanov Vüqar İsmayıl oğlu - əsgər (ölümündən sonra)
Zamanov Zaman Rahib oğlu - əsgər
Zamanzadə Vəli Nizami oğlu - əsgər
Zayirov Amin Səməd oğlu - əsgər
Zeynalabdıyev Yunis Akif oğlu - əsgər
Zeynallı Babək Nizami oğlu - əsgər
Zeynallı Cavid Əlibala oğlu - əsgər
Zeynallı Ceyhun Bahadır oğlu - əsgər
Zeynallı Fərid Firdovsi oğlu - əsgər
Zeynallı Fikrət Akif oğlu - əsgər (ölümündən sonra)
Zeynallı Hüseyn Elçin oğlu - əsgər
Zeynallı Hüseyn İldırım oğlu - əsgər
Zeynallı Kamran Sahib oğlu - əsgər
Zeynallı Qadir Qabil oğlu - əsgər
Zeynallı Qorxmaz Hamlet oğlu - əsgər
Zeynallı Nail Əfqan oğlu - əsgər
Zeynallı Nurlan Hüseyn oğlu - əsgər
Zeynallı Samir Pərviz oğlu - əsgər
Zeynallı Valeh Bilman oğlu - əsgər
Zeynalov Anar Şaban oğlu - əsgər
Zeynalov Ayhan Rza oğlu - əsgər
Zeynalov Coşqun Çingiz oğlu - əsgər
Zeynalov Elçin Eldar oğlu - əsgər
Zeynalov Elməddin Fazil oğlu - əsgər
Zeynalov Elmir Qabil oğlu - əsgər
Zeynalov Elmir Nağı oğlu - əsgər
Zeynalov Elnur Teyran oğlu - əsgər
Zeynalov Əflan İslam oğlu - əsgər
Zeynalov Əli Elmar oğlu - əsgər
Zeynalov Əliəkbər Namiq oğlu - əsgər
Zeynalov Əzizağa Sakit oğlu - əsgər
Zeynalov Hüseyn Seymur oğlu - əsgər
Zeynalov Hüseyn Telman oğlu - əsgər
Zeynalov Xalıq Elman oğlu - əsgər
Zeynalov Xəqani Rahib oğlu - əsgər
Zeynalov Xəyal Sübhan oğlu - əsgər
Zeynalov Xəyyam Ramiz oğlu - əsgər
Zeynalov Xəyyam Sübhan oğlu - əsgər
Zeynalov Kamran Vüqar oğlu - əsgər
Zeynalov Qulam Əsədağa oğlu - əsgər
Zeynalov Mahir Zakir oğlu - əsgər
Zeynalov Mirəli Şahid oğlu - əsgər
Zeynalov Niyaz Əlimusa oğlu - əsgər
Zeynalov Orxan Fazil oğlu - əsgər
Zeynalov Ramazan Elçin oğlu - əsgər
Zeynalov Rasim Münasib oğlu - əsgər
Zeynalov Ruslan Nəriman oğlu - əsgər
Zeynalov Tural Adil oğlu - əsgər
Zeynalov Tural Qabil oğlu - əsgər
Zeynalov Vaqif Vidadi oğlu - əsgər
Zeynalov Vasif Asif oğlu - əsgər
Zeynalov Vüqar Zülfiqar oğlu - əsgər
Zeynalzadə Arzuman Rəfail oğlu - əsgər
Zeynəlov Bahadır Həmzə oğlu - əsgər
Zeyniyev Rəşad Ələkbər oğlu - əsgər (ölümündən sonra)
Zəkəryəyev Əliheydər Əfqan oğlu - əsgər
Zəkəryəyev Mayıl Emin oğlu - əsgər
Zəkəryəyev Məhəmməd Əfqan oğlu - əsgər
Zəkiyev Mirovliya Mirşühəda oğlu - əsgər
Zəkiyev Nurəddin Şahəddin oğlu - əsgər
Zəkiyev Seymur İntiqam oğlu - əsgər
Zərbalıyev Nayib Elşən oğlu - əsgər
Zərbəliyev İlqar Kamil oğlu - əsgər
Zərbəliyev Nicat Elburuz oğlu - əsgər
Zərbəliyev Rövşən Yusif oğlu - əsgər
Zərbəliyev Rüfət Rəşad oğlu - əsgər
Zərbəliyev Yusif Nurəddin oğlu - əsgər
Zərbəlizadə Sənan Kənan oğlu - əsgər
Zərgərli Rauf Rəfael oğlu - əsgər
Zərgərli Zaur Səxavət oğlu - əsgər
Zərgərov Eşqin Nəvai oğlu - əsgər
Ziyadlı Rahib Umbay oğlu - əsgər
Ziyadov İlkin Böyükağa oğlu - əsgər
Ziyadov Ziyad Məzahir oğlu - əsgər
Ziyazadə Xəyal Zafil oğlu - əsgər
Zöhrablı Bahadur Fəzayıl oğlu - əsgər
Zülfiqarov İsmayıl Marif oğlu - əsgər
Zülfiqarov Sahil Əlifağa oğlu - əsgər
Zülfiqarov Səbuhi Fizuli oğlu - əsgər
Zülfiqarov Zülfiqar Əlsəməd oğlu - əsgər
Zülfüqarlı Balaşirin Yasər oğlu - əsgər
Zülfüqarlı Sadiq Fikrət oğlu - əsgər
Zülfüqarov Atif Akif oğlu - əsgər
Zülfüqarov Əlisahib Yaşar oğlu - əsgər
Zülfüqarov Əsəd Ağamirzə oğlu - əsgər
Zülfüqarov Məlik Kamran oğlu - əsgər (ölümündən sonra)
Zülfüqarov Möhübbət Akif oğlu - əsgər
Zülfüqarov Nicat Bəxtiyar oğlu - əsgər
Zülfüqarov Rafət Hidayət oğlu - əsgər
Zülfüqarov Yasin Famil oğlu - əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2020-ci il*

# Biz birlikdə güclüyük!

## *Professor Akif QURBANOV:* “Müsbət dinamika vətəndaşları koronavirusla mübarizədən çəkindirməməlidir”

“Koronavirusla bağlı statistik göstəricilərdə müsbət dinamikanın olması bizi arxayın etməməlidir. Çünki koronavirusa yoluxanların sayı təkrar artarsa, yenidən əvvəlki qorxulu vəziyyət yarana bilər”. AZƏRTAC xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyəti yanında tibbi-elmi komitənin sədri, professor Akif Qurbanov deyib.



Professorun sözlərinə görə, epidemik prosesin içərisində dalğa adlandırılan ayrı-ayrı piklər olur: “Həmin proses başlayanda əvvəlcə yoluxma sayları artır. Bu dövrdə sözsüz ki, sağalanların sayı az olur. Müəyyən müddətdən sonra epidemiya özünün pik həddinə çatır. Proses bir müddət pik vəziyyətində qalır. Sonra yoluxanların sayında azalma müşahidə olunur. Keçmişdə yoluxub xəstələnənlər müalicə olunub sağaldıqları üçün onların sayı artır. Bu, epidemik prosesin qanunauyğunluğudur, hazırda biz onu müşahidə edirik. Bir neçə gün öncə ölkəmizdə koronavirusa yoluxanların sayı 4 minin üzərində idi. Təxminən iki həftə rəqəmlər belə qaldı. Bu, pik vəziyyəti idi. Hazırda isə getdikcə azalmalar müşahidə edilir. Burada görülmüş əks-epidemik tədbirlərin böyük əhəmiyyəti var. Vətəndaşların qaydalara riayət etməsi, müəyyən qadağaların tətbiq olunması, müxtəlif müəssisələrin bağlanması, iş rejiminin məhdudlaşdırılması və s. kompleks tədbirlər nəticəsində yoluxma saylarında azalmalar, bəzən isə kəskin enmələr müşahidə edilir”.

A.Qurbanov bildirib ki, müsbət dinamika vətəndaşları koronavirusla mübarizədən çəkindirməməli, əksinə, görünməz düşmənlə daha qətiyyətlə vuruşmağa sövq etməlidir. Unutmayaq ki, qaydalara əməl etməkdən başqa güclü silahımız yoxdur.

## Azərbaycan qlobal pandemiyaya qarşı hərtərəfli mübarizəni davam etdirir





*Əvvəli 1-ci səh.*

### Görülən tədbirlər əhalinin sağlamlığının etibarlı təmininə yönəlib

Azərbaycanda da qlobal pandemiyaya qarşı hərtərəfli mübarizə davam etdirilir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq pandemiyanın qarşısının alınması üçün ilk zamandan etibarən qətiyyətli və çevik addımlara start verilib. Ölkəmizdə qlobal böhranın aradan qaldırılması istiqamətində görülən işlər infeksiyanın nəzarət altında saxlanmasına, əhalinin təhlükəsizliyinin və sağlamlığının etibarlı təmininə yönəlib.

Ölkəmizdə qısa zamanda səhiyyə infrastrukturunun koronavirusla mübarizəyə istiqamətləndirilməsi pandemiyaya qarşı mübarizədə tədbirləri gücləndirib. Belə ki, virusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunmasında vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsi baxımından böyük rol oynayan modul tipli xəstəxanaların inşasının müstəsna əhəmiyyəti olub.

Ölkəmizdə koronavirusla mübarizə çərçivəsində tibbi xidmətlərin keyfiyyətinin daha yüksək səviyyəyə çatdırılması, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, eyni zamanda maska istehsalı müəssisəsinin açılması, yeni təcili tibbi yardım avtomobillərinin təminatı kimi mühüm əhəmiyyətli işlər həyata keçirilib.

Azərbaycan çevik şəkildə ümumi bəlaya qarşı mübarizə üzrə operativ tədbirlər görüb. Qısa zaman ərzində laboratoriyaların sayı 8 dəfə artırılıb. Ötən müddət ərzində yeni koronavirusun aşkarlanması üçün ümumilikdə 2 milyondan çox test aparılıb.

Respublikamızda 10-dan çox yeni müasir xəstəxana, o cümlədən modul tipli xəstəxana tikilib. Bunun sayəsində virusa yoluxan xəstələr üçün 10 mindən çox çarpayı yeri yaradılıb.

Paralel olaraq həkim çatışmazlığının qarşısının alınması istiqamətində mühüm işlər görülüb. Bəzi ölkələrlə bu sahədə əməkdaşlıq üçün operativ danışıqlar aparılıb, 5 ölkədən - İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən həkimlər dəvət edilib ki, bu da xəstələrin müalicə olunaraq sağaldılmasında müstəsna rol oynayıb.

Görülən tədbirlərin nəticəsidir ki, indiyə qədər virusa yoluxan 150 mindən çox vətəndaşımız müalicə olunaraq sağalıb.

### Vətəndaşlara dövlət dəstəyi göstərilir

Qlobal böhranın ölkəmizdə daha az hiss olunması üçün bütün istiqamətlərdə lazımi qabaqlayıcı tədbirlər davam etdirilir. Karantin dövrü ərzində vətəndaşlara göstərilən maddi və sosial yardımlar bu xüsusda əhəmiyyətli rol oynayır. Pandemiyadan əziyyət çəkən insanlara dövlət tərəfindən böyük dəstək göstərilir.

Pandemiyaya qarşı mübarizə, habelə zərərçəkmiş kateqoriyalardan olan vətəndaşlara maliyyə dəstəyi göstərilməsi üçün dövlət büdcəsindən təqribən 2,5 milyard dollar məbləğində vəsait ayrılıb. Maliyyə dəstəyi tədbirləri Azərbaycanın beş milyona yaxın vətəndaşını əhatə edib.

Vaxtaşırı ölkədəki sanitar-epidemioloji vəziyyət təhlil edilərək lazımi qərarlar qəbul olunur. Nazirlər Kabineti yanında Operativ Qərargah Azərbaycanda son aylarda yaşanan yoluxma səviyyəsini nəzərə alaraq virusun yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində sərtləşdirilmiş karantin tədbirlərinin həyata keçirilməsinə qərar verib. Qərara əsasən, ölkə üzrə xüsusi karantin rejiminin müddəti gələn ilin 31 yanvarınadək uzadılıb. Eyni zamanda 2021-ci ilin yanvarın 18-dək bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq edilib.

Tətbiq edilən karantin rejimi və digər koronavirusla mübarizə tədbirlərinin səmərəliliyi sayəsində hazırda ölkəmizdə yoluxma hallarında azalma tendensiyası müşahidə olunur, sağalanların sayı artır.

### Vaksin vurulacaq şəxslərlə bağlı elektron sistem mövcud olacaq

Artıq koronavirusa qarşı peyvənd hazırlanıb və bəzi ölkələrdə tətbiqinə başlanılıb. Ölkəmizdə də vaksinlərin alınması ilə əlaqədar hazırlıq işləri görülüb, GAVI tərəfindən təsis edilmiş COVAX təsisatına qoşulub. Vaksinasiya isə pulsuz həyata keçiriləcək.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı mətbuata müsahibəsində məlumat verib ki, əhalinin maarifləndirilməsi üçün çoxlu sayda materiallar hazırlanacaq və onlar ictimaiyyətə paylanacaq. Qeyd edib ki, ilk növbədə, risk qrupuna daxil olan insanların COVID-19 virusuna qarşı vaksinasiyası aparılacaq. Həmçinin Azərbaycanda koronavirus vaksini vurulacaq şəxslərlə bağlı elektron sistem mövcud olacaq. Hazırda mütəxəssislər bu proqram üzərində çalışırlar.

Göründüyü kimi, dövlətimiz bütün imkanlarını qlobal pandemiyaya qarşı səfərbər edib, infeksiyanın nəzarət altında olması, idarəolunan səviyyəyə çatdırılması, lokallaşdırılması və tamamilə yox edilməsi istiqamətində zəruri tədbirlər görür.

Vətəndaşlar da bu istiqamətdə hökumətə dəstək verməli, pandemiyanın tələb etdiyi şərtlərə maksimum əməl etməlidirlər.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

## Koronavirusdan xilas yolları mümkündür

### Pandemiya ilə mübarizə həkimlərin peşə, əhalinin isə vətəndaşlıq borcudur



Koronavirusa qarşı xüsusi müalicə vasitəsi və ya vaksinin (peyvəndin) hələ ki, olmaması heç də faciə hesab olunmamalı, panika yaratmamalıdır. Mütəxəssislərin fikrincə, bu virusa yoluxmuş əksər insanlar özləri sağalır, yalnız bir şərtlə: onlar vaxt itirmədən həkimə müraciət edib müalicə olunmalıdırlar. Bununla yanaşı, koronavirus yoluxmasının qarşısını almaq üçün soyuqdan qorunmalı, qabaqlayıcı tədbirlərə riayət olunmalıdır.

Bir çox hallarda COVID-19-a yoluxmuş insanlarda xəstəlik simptomları olmur və onlar sadəcə daşıyıcı rolu oynayırlar. Ona görə də hər bir insanın sanitar, dezinfeksiya qaydalarına riayət etməsi olduqca vacibdir.

Dar dəhlizlərdə hava axınının dinamikası koronavirusa yoluxma riskini artırır. Amerikalı alimlərin bu barədə araşdırmaları da var. Amerika Fizika İnstitutunun mütəxəssisləri simulyasiyalardan istifadə edərək insanı əhatə edən məkanın gəzinti zamanı virus hissəciklərinin yayılmasına necə təsir etdiyini öyrəniblər. Əvvəlcə hava axını sxemlərini təyin edib, sonra asqıranda və ya öskürəndə insanın ağzından atılan damcı buludunun dağılmasını proqnozlaşdıran bir proqram yaradıblar.

Alimlər iki dispersiya rejimini tapıb. Birincisində açıq sahələrə xas olan və meydana gələn damcı buludu insanın ətrafında qalıb və tədricən dağılıb. İkincisində dar dəhlizlərə xas olan bulud hərəkət edən şəxsdən ayrılıb və çox geridə qalaraq köpük əmələ gətirib. Mütəxəssislər ikinci vəziyyətdə yoluxma riskinin daha yüksək olduğu qənaətinə gəlib.

### Risklər, özünümüdafiə, profilaktika və cərimələr

Azərbaycanda koronavirus infeksiyasına yeni yoluxanların və müalicə olunub sağalanların sayı nə panika yaratmağa, nə də vəziyyəti başlı-başına buraxmağa səbəb ola bilməz. Riskləri, özünümüdafiə və profilaktikanı da unutmağa dəyməz. Yoluxmaların çoxalmasına baxmayaraq, sağalanların sayının gündən-günə artması pandemiyanın ikinci dalğasının tezliklə ötüb-keçməsi proqnozunu verməyə əsas yaradır.

İndiyədək ölkəmizdə ümumilikdə 2 yüz min nəfərdən çox insanın koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 160 mindən çoxu müalicə olunaraq sağalıb, 2 mindən çox vətəndaşımız vəfat edib, aktiv xəstələrin sayı 45 mindən artıq olub.

Rusiyanın Qamaleya Araşdırma Mərkəzinin direktoru Aleksandr Qinçburqun mətbuata verdiyi məlumatdan aydın olur ki, koronavirusa qarşı yüngül peyvənd tətbiq edildikdən sonra immunitetin müdafiə gücü üç-dörd aya formalaşacaq. Peyvəndin effektivliyi isə 85 faiz olacaq. Yüngül peyvənddən ölüm dərəcəsi yüksək olan ölkələrdə istifadə ediləcək.

Həkimlər koronavirusdan qurtulan xəstələrin təxminən 20 faizinin postkovid sindromu yaşadığına inanırlar. Onun əlamətləri arasında ürək, ağ ciyər və digər orqanlarda fəsadlara rast gəlinir. Bu barədə immunoloq Nikolay Kryuçkov deyib: “ABŞ-dan alınan məlumatlara görə, sağaldıqdan sonra gənclər də daxil olmaqla, xəstələrin təxminən 20 faizində postkovid sindromu əlamətləri özünü göstərir və ya davam edir. Bu, fərqli formalarda olur, ümumiyyətlə, ciddi təzahürlər deyil, lakin yenə də insanların əhəmiyyətli bir hissəsində rast gəlinir. Xüsusilə yaşlı və xroniki xəstəlikləri olan insanların müəyyən pozğunluqlara məruz qalması ehtimalı daha çoxdur”.

Həkim postkovid sindromunun təzahürlərinin zəif konsentrasiya, yaddaş, yuxusuzluq, depressiya, ürək və ağ ciyər, həzm sistemi və baş ağrısı problemləri olduğunu da bildirib. Ümumi əzələ və baş ağrıları da ola bilər.

Bütün bunlara görə də koronavirusa yoluxmadan uzaq durmaq daha yaxşıdır. Bunun üçün müəyyən tədbirlər var.

### Ciddi karantin rejiminə əməl olunmalı, istirahət etməli, çoxlu maye içməli...

Tibb üzrə fəlsəfə doktoru Ramil Nadirov virusun insan orqanizminə hansı şəraitdə daxil olması, orada törətdikləri, xüsusən ağ ciyərləri necə sıradan çıxarması barədə fikirlərini bölüşərkən bildirdi ki, koronavirus yoluxması zamanı və simptomları yüngülləşdirmək üçün soyuqdəyməyə qarşı edilən müalicəni unutmaq olmaz. Yəni bolluca istirahət, çoxlu maye qəbul etməli, dehidrasiyadan yayınmalıyıq.

Bu gün tüğyan edən koronavirus bir sıra digər xəstəliklərə oxşadığı üçün bəzən insanlar onu dəyişik salır. Buna görə də onların qarşılıqlı təhlilini aparmaq olduqca vacibdir. “Bu gün koronavirus pandemiyası dünyanı əsarət altına alıb. Pandemiyanın zərərlərini yaşamayan ölkə demək olar ki, yoxdur. Pandemiya bir və bir neçə ölkəni hansısa bir infeksion xəstəliyin bürüməsi anlamını verir. İnfeksion xəstəliklərin yaranması üçün isə müəyyən şərtlər lazımdır. Həmin şərtlərdən biri törədicinin olmasıdır. Törədici var - koronavirus. Törədicinin orqanizmə giriş qapısı olmalıdır. Bu da var: göz, burun və ağız boşluğumuz. Törədicinin virulentliyi də lazımdır. Virulentlik dedikdə bakteriya və ya virusların xəstəliktörətmə qabiliyyəti nəzərdə tutulur. Virulentlik qabiliyyəti nə qədər yüksəkdirsə, xəstəliktörətmə ehtimalı da bir o qədər artıq olur. Bakteriya və ya virusa qarşı orqanizmin immun sisteminin cavabından asılı olaraq, xəstəliyin yaranma dərəcəsi də müxtəlif ola bilər: bir insanda xəstəlik ağır, digərində isə daha yüngül keçə bilər. Bu, orqanizmin ümmun sisteminin gücü ilə əlaqəlidir”, - deyə R.Nadirov bildirib.

Həkim onu da xüsusi vurğuladı ki, əgər biz özümüzü qorumasaq, qayda-qanunlara əməl etməsək, o virus bizim orqanizmimizə daxil olmağa imkan tapacaq, bunun sonu da fəlakət deməkdir! Hələ pandemiyanın ölkəmizə yenicə “ayaq açdığı” ilk vaxtlardan başlayan “evdəqal” kampaniyası elə-belə yerə tələb kimi qarşıya qoyulmadı. Təəssüf ki, bir müddətdən sonra sanki heç nə olmayıbmış kimi, ölkə vətəndaşları Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargahın və TƏBİB-in təkliflərini qulaqardına vurdu. Bu az imiş kimi, tətbiq edilən qaydalar və karantin rejiminin qadağaları belə unuduldu. Buna görə cərimələrin artırılması baş verdi. Çoxsaylı yoluxmaya baxmayaraq, məsuliyyətsiz insanların qaydaları hələ də kobud şəkildə pozmasına rast gəlinir. Xəstə olduğunu bilənlərin evdən çıxması, ətrafdakıları yoluxdurması başadüşülən deyil. Əgər özümüzü qorusaq, bu, gələcəkdə də belə xəstəliklərdən sığortalanmağımız demək olar. Ağciyərə zədə sala bilərsə, bu virus lap sağalsaq belə yaxın-uzaq gələcəkdə orqanizmimizdə yenidən baş qaldıra və bizi məhv edə bilər. Evdə qalmaq, sadə gigiyenik qaydalara əməl etmək, immun sistemini gücləndirən təbii qidalardan istifadə bütün bu sadaladıqlarımıza əməl etmək deməkdir.

### Orqanizmimizi qoruyan əsas immun sistemimizdir

Digər tərəfdən risk faktorları olan amillərə də nəzər salmaq yerinə düşərdi. Bura ilk növbədə yaş, köklük, yanaşı xəstəlik - şəkərli diabet, onkoloji, eləcə də hər hansı xroniki xəstəliklər daxildir. Həkim deyib: “Qeyd etdiyimiz kimi, orqanizmimizi qoruyan əsasən immun sistemimizdir. Bu gün şəkərli diabet, yaxud hər hansı digər xroniki iltihabdan əziyyət çəkən insanların immun sistemi nə haldadır! Orqanizmimiz bir ahəng formasında çalışır. Bu ahəng pozulduqda orqanizmin müqaviməti qırılır, həmin xəstəlik qarşısında aciz qalır və məhv olur. Ölkəmizin vətəndaşlarına bolluca səbir, təmkin arzulayır və inanıram ki, biz birlikdə qalib olmağı bu pandemiya üzərində qələbədən təsdiqləyəcəyik!”

Bunları deməkdə həkimin məqsədi odur ki, insanların bu kimi problemləri varsa, özünü və evdəki, eləcə də ətrafındakı yaxınlarını düşünsün. “Evdəqal” kampaniyası ümumxalq hərəkatına, ona əməl etmək isə hər kəsin borcuna çevrilməlidir. Bu, ilk növbədə, özümüzün, sonra isə ətrafımızdakıların sağlamlığı üçün zəruridir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

## Koronavirusdan daha 4255 nəfər sağalıb, 1428 nəfər isə yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 4255 nəfər müalicə olunaraq sağalıb, 1428 yeni yoluxma faktı qeydə alınıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 38 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 213 min 192 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 164 min 500 nəfər müalicə olunaraq sağalıb, 2454 nəfər vəfat edib. Aktiv xəstə sayı 46238 nəfərdir. Ötən müddət ərzində 2 milyon 141 min 798 test aparılıb. Dünənki test sayı isə 12507-dir.

## Füzulidə koronavirus xəstəsi olan və bərbər işləyən şəxs aşkarlanıb

Füzuli Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları koronavirus pandemiyasının yayılmasının qarşısının alınması istiqamətində genişmiqyaslı tədbirləri davam etdirirlər.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, Füzulidə yaşadığı ünvanı tərk edən COVID-19 xəstəsi müəyyən edilib. Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə polis əməkdaşları tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində koronavirus testi pozitiv çıxmış və ev şəraitində müalicə təyin edilmiş rayon sakini İ. Səfərovun karantin qaydalarına zidd davranaraq yaşadığı ünvanı tərk edib bərbərlik fəaliyyəti ilə məşğul olduğu müəyyənləşib. Həmin şəxs həkimlərin müşayiəti ilə yaşadığı ünvana geri qaytarılıb.

Füzuli RPŞ-nin istintaq bölməsində faktla bağlı araşdırma aparılır.

## Tovuzda karantin qaydalarına zidd olaraq təşkil olunan “xınayaxdı” məclisinin qarşısı alınıb

Tovuzda karantin qaydalarına zidd olaraq təşkil olunan “xınayaxdı” məclisinin qarşısı alınıb.

AZƏRTAC xəbər verir ki, Tovuz Rayon Polis Şöbəsinə rayonun Abulbəyli kəndində yaşayan Yaqub Məmmədovun karantin rejiminin qaydalarını pozaraq gizli şəkildə qızına “xınayaxdı” mərasimi keçirməsi barədə məlumat daxil olub. Polis əməkdaşları dərhal sözügedən ünvana gəliblər və 40 nəfərlik məclisin keçirilməsinin qarşısı alınıb. Bəlli olub ki, Yaqub Məmmədov polisdən yayınmaq üçün xına mərasimini qudası Fazil Mehdiyevin evində keçirib.



Məclisdə iştirak edən bir neçə nəfər şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilərək cərimə olunublar. Məclisdə iştirak edib, polisdən yayınmağa cəhd edən digər şəxslər barəsində araşdırmalar davam etdirilir.

# “Prezident Kuboku”nun qalibi “Sərhədçi” çövkən komandası olub






24 dekabr 2020-ci il tarixdə Azərbaycan Respublikası Atçılıq Federasiyası tərəfindən təşkil olunan Çövkən Milli Atüstü oyunu üzrə “Prezident Kuboku”nun final oyunu keçirilib.

Final oyununda “Sərhədçi” çövkən komandası ilə “Polad” çövkən komandası qarşılaşıblar. Gərgin mübarizə şəraitində keçən görüşdə əsas hissə 1-1 hesablı bərabərliklə bitib. Qaydalara əsasən oyuna 20 dəqiqə vaxt əlavə olunub. Əlavə olunmuş vaxtda da komandalar qarşılıqlı olaraq rəqib qapısına bir dəfə yol tapa bilib. Bununla da, oyunun taleyini penalti zərbələri müəyyən edib. Penaltilərdə önə keçən “Sərhədçi” komandası ümumi hesabda rəqibi üzərində 4-3 hesablı qələbə qazanaraq “Prezident Kuboku”nun sahibi olub.

“Buta Qolden” və “Sərhədçi 2-Dilbaz” çövkən komandaları arasında keçirilən üçüncülük uğrunda görüşdə isə “Buta Qolden” komandası rəqibinə 3-0 hesabı ilə qalib gələrək turniri 3-cü yerdə bitirib.

Turnirin bombardiri, eyni zamanda ən məhsuldar oyunçusu “Polad” çövkən komandasının 9 qola imza atan hücumçusu Şəhriyar Ağayev olub.

Qaliblərə Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev tərəfindən kubok, medal və diplomlar təqdim olunub.

*“Azərbaycan”*

## Şəhidlər

Dağılar duman da, dağılar çən də,
Həm Allah sevinər, həm də ki, bəndə.
Dava qurtaranda, üzlər güləndə
Şəhidlər qayıdar yenə bu yurda.

Torpaq rahatlanıb nəfəs alanda,
Durular əhval da, durular qan da.
Arzu cücərdikcə ürəkdə, canda
Şəhidlər qayıdar yenə bu yurda.

Bir oğul evlənsə, bir gəlin köçsə,
Aşıq sinəsində sazıyla ötsə,
İgidlər, ərənlər girəndə bəhsə
Şəhidlər qayıdar yenə bu yurda.

Bir dəli gülüşün uğultusunda,
Körpə bir uşağın qığıltısında,
Elin toy günündə, elin yasında
Şəhidlər qayıdar yenə bu yurda.

Yananda hər evdə toy-bayram şamı
Sevinər el-oba, sevinər hamı...
Həftədə bir dəfə - cümə axşamı
Şəhidlər qayıdar yenə bu yurda.

Yayılsın bu sədam şəhərə, kəndə,
Dedim sözlərimi ürək dinəndə.
Bütün Azərbaycan bütövləşəndə
Şəhidlər qayıdar yenə bu yurda.

***Seyran CAVADOV,***
***“Azərbaycan”***




# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| “Azərmətbuatyayımı” ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| “Azərpoçt” ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Qaya” firması | (012) 566-77-80, (050) 214-40-53 |
| “Kaspi” MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


# Azərbaycan Ordusunun bölmələrində döyüş hazırlığı üzrə dərslər keçirilir






Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, zirehli texnikanın tətbiqi üzrə praktiki vərdişlərin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Ordusunun bölmələrində döyüş hazırlığı üzrə dərslər keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, praktiki dərslər zamanı hərbi qulluqçular sıra hazırlığı üzrə məşqlərə cəlb olunur, simulyasiya trenajorlarında təlim keçir və zirehli texnikanın idarə edilməsi bacarıqlarını artırırlar.



# Azərbaycan Ordusunun bölmələri döyüş atışları keçirir

Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq sərt hava şəraiti və müxtəlif relyefli ərazilərdə hərbi qulluqçuların döyüş hazırlığı üzrə praktiki dərsləri keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dərslərdən əvvəl təlim sahələrinin rəhbərləri praktiki məşqlərə cəlb olunan şəxsi heyəti təhlükəsizlik qaydaları, atışın şərtləri və digər tələblərlə tanış ediblər.

Hərbi qulluqçular şərti düşmən hədəflərinə atıcı silahlardan atəş açır və digər praktiki tapşırıqları icra edirlər.


# «AZƏRBAYCAN» qəzetinin reklam xidməti


# Ermənistan müxalifəti indi də xalqı günahlandırır

***Əvvəli 1-ci səh.***

Bu gün Ermənistanın üzləşdiyi çoxsaylı böyük problemlərin meydana gəlməsində və getdikcə daha da dərinləşməsində əsas günahkar tərəflərdən biri kimi diaspor təşkilatları da göstərilir. Ermənistanın istər daxili, istərsə də xarici siyasətinin müəyyən olunmasında həlledici təsir gücünə malik diaspor təşkilatlarının mövcud fəaliyyəti adıçəkilən ölkəni getdikcə daha böyük problemlərə düçar edib. Fəaliyyət göstərdiyi xarici ölkə ərazisində özünə rahat şərait yaradan, maddi çətinliklərlə üzləşməyən erməni diasporunu Ermənistanın üzləşdiyi problemlər qətiyyən maraqlandırmır. Əksinə, diaspor Ermənistan hakimiyyətinin onun diktəsi ilə hərəkət etməsi üçün daim rəsmi Yerevanı böyük təzyiq altında saxlayır, tez-tez bu ölkəyə göndərdiyi maliyyə və digər yardımları kəsəcəyi ilə hədələyir.

Bu ölkədə hakimiyyət isə hər zaman diaspor qurumlarından gələn göstəriş və əmrləri can-başla yerinə yetirməyə müntəzir dayanır. Elə bunun nəticəsidir ki, Ermənistanın taleyini həll edən qərarlar bu ölkədə yox, onun sərhədlərindən kənarda qəbul olunur. Bu vəziyyət Ermənistanın onsuz da formal xarakter daşıyan dövlətçiliyinin məhvini daha da sürətləndirməkdə, onun iflasını tezləşdirməkdədir.

İqtisadi durum da getdikcə ağırlaşır. Bunu keçirilən sosioloji sorğular da təsdiqləyir. Belə ki, bu günlərdə rəyi soruşulan insanların 38,3 faizi ölkə iqtisadiyyatının pis vəziyyətdə olduğunu düşünür. Respondentlərin 35,6 faizinin fikrincə, Ermənistan iqtisadiyyatı çox pis vəziyyətdədir. Əhalinin yalnız 0,6 faizi iqtisadi vəziyyətin çox yaxşı olduğunu bildirib. Ermənistanın ümumi dövlət borcunun 8 milyard ABŞ dollarını ötəcəyi proqnozlaşdırılır ki, müharibədəki məğlubiyyətdən sonra gözlənilən defolt bu ölkənin xarici borc öhdəlikləri sahəsində ciddi çətinliklərin meydana çıxmasına rəvac verəcək. Çünki defolt o deməkdir ki, dövlət borc öhdəliklərini vaxtında yerinə yetirə bilmir.



Ermənistan onsuz da borc öhdəliklərini çətinliklə yerinə yetirir. Əslində, borc öhdəlikləri başqa borclar hesabına yerinə yetirildiyindən ölkənin xaricdən olan iqtisadi asılılığı da sürətlə artır. Belə vəziyyət isə iqtisadi tənəzzülü daha da sürətləndirir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Yaxın qohumlarını qətlə yetirməkdə şübhəli bilinən şəxs barəsində cinayət işi məhkəməyə göndərilib

Cari il mayın 9-da İsmayıllı rayonunun Bizlan kəndi ərazisində Tapdıqov Zakir Şakir oğlunun və arvadı Məmmədova Zərinə Babakamul qızının yaşadıqları evdə üzərində zorakılıq əlamətləri olan meyitlərinin aşkarlanması faktı üzrə Cinayət Məcəlləsinin 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürmə) maddəsi ilə İsmayıllı Rayon Prokurorluğunda cinayət işi başlanaraq istintaq aparılıb.

İsmayıllı Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, cinayət işi üzrə müvafiq ekspertizalar təyin edilib, hadisə yerinə və meyitlərə baxış keçirilib, maddi sübutlar götürülüb, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış istintaq zamanı zərərçəkmişlərin ögey nəvəsi Qədirov Vüsal Şirvan oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı qəsdən xüsusi amansızlıqla onun üçün aşkar surətdə köməksiz vəziyyətdə olan Z.Məmmədovanı və Z.Tapdıqovu öldürərək sonuncuya məxsus odlu silahı talamasına, sonra isə həmin silahla qardaşı Şamo Qədirovu öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Vüsal Qədirov təqsirləndirilən şəxs qismində cəlb olunub. Ona Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə) və digər maddələri ilə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılaraq, baxılması üçün aidiyyəti üzrə Şəki Ağır Cinayətlər Məhkəməsinə göndərilib.


Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və əməkdaşları Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədova atası

**MƏMMƏD MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

**Tiraj 7368**
**Sifariş 3005**
**Qiymәti 40 qəpik**